RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 135 (9014) ÇƏRŞƏNBƏ, 29 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Biz bu torpaqların sahibiyik, burada əbədi yaşayacağıq!

## Prezident İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib.

Prezident Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlərlə tanış olub, Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib.

Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi təqdim edildikdən sonra Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub.

Sonra Prezidentə Kəlbəcər şəhərinin Baş planı təqdim edilib. Ali Baş Komandan İlham Əliyev Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasında olub. Burada dövlət başçısına hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə məlumat verilib.

Prezident İlham Əliyev Kəlbəcər rayonunda İstisu sanatoriyasının təməlini qoyub, daha sonra çıxış edib.

# Biz bu torpaqların sahibiyik,

## Kəlbəcər şəhərinə rahat gediş-gəliş təmin ediləcək

Xəbər verdiyimiz kimi, iyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib.









AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən inşaat işləri haqqında məlumat verdi.

Qeyd edildi ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun inşa edilir. Belə ki, yolun keçdiyi ərazinin sərt dağlıq və qayalıq olması nəzərə alınaraq, onun əsas hissəsinin ikizolaqlı, yoxuşlarda isə əlavə zolaq artırılmaqla tikintisi aparılır. Bu yol tunel və körpü hissələrdə dörd hərəkət zolaqlı olacaq.

Hazırda yolboyu torpaq yatağının, həmçinin zəruri yerlərdə suötürücülərin tikintisi davam edir. İki hissədə mövcud kanalların köçürülməsi, həmçinin bəzi ərazilərdə suötürücülərin inşası tamamlanıb, yeni su kanalının tikintisi davam etdirilir.

Bildirildi ki, layihənin 13,5-ci kilometrindən Murovdağ silsiləsi başlayır. Yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3250 metrədək artır. Bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Artıq tuneldə gediş və gəliş istiqaməti üzrə 2,1 kilometr uzunluğunda qazma işləri tamamlanıb.

Tunel müvəqqəti havalandırma sistemi ilə təmin edilib. Piyadalar və avtomobillər üçün nəzərdə tutulan iki ehtiyat keçidin tikintisi yekunlaşıb.

Hazırda tuneldə partlatma və qırma prosesləri nəticəsində əmələ gələn qaya parçalarının və süxurların daşınması, lay sularının kənarlaşdırılması və tuneldaxili hissənin üzlənməsi işləri davam etdirilir.

Həmçinin məlumat verildi ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılıb. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir.

Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

# İşğaldan azad edilən Kəlbəcərdə istismara verilən ilk elektrik stansiyası






İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib.






AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir.

"Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib.

Qeyd olundu ki, "Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Dövlət başçısı stansiyanı işə saldı.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" kiçik su-elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub.

# Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində Komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.





AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Müdafiə naziri yeni inşa edilən hərbi şəhərciyin baş planı barədə Ali Baş Komandana məlumat verdi.

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti salamladı və hərbçiləri 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olundu.

Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlət başçısı tədbirdə çıxış etdi.

*Ardı 3-cü səh.*



# burada əbədi yaşayacağıq!

## Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır

### Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*





- Bu gün biz Silahlı Qüvvələr Gününü Kəlbəcərdə qeyd edirik, azad olunmuş Kəlbəcərdə. Eyni zamanda bu gün Kəlbəcərdə yeni yaradılmış Komando qüvvələrinin hərbi hissəsi açılır.

Altı ay bundan əvvəl, dekabrın 24-də birinci Komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış Komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və Komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir.

Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi Ordu gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə - hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək, biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirib.

Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Ancaq biz bu şanlı qələbəni əldə etmək üçün gecə-gündüz çalışmalı idik, güc toplamalı idik. Çünki bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq fəaliyyəti formal şəkildə davam etdirir. Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi. Ancaq işğalçıya heç kim "Azərbaycan torpaqlarından çıx!" deməmişdir. Ona görə biz güc toplamalı idik ki, özümüz bu vəzifəni icra edək və toplayırdıq. Siyasi güc topladıq, beynəlxalq aləmdə öz gücümüzü artırdıq. Bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. İqtisadi güc topladıq və iqtisadi müstəqillik əldə etdik. Əgər iqtisadi müstəqillik olmasaydı, imkanlarımız olmasaydı, biz müharibəni hansı vasitələrlə aparacaqdıq? Ona görə iqtisadi müstəqillik və sürətli inkişaf bizim qələbəmizi yaxınlaşdırırdı.

Vətənpərvərlik işinə çox böyük önəm verirdik. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün bir çox tədbirlər görülmüşdür və buna nail olduq. Bu gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Ona görə vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və əlbəttə ki, Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi - bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəydik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmamışdı.

Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi qələbə ilə fəxr edəcəyik.

Ermənistan ordusu 44 gün ərzində demək olar ki, məhv edilmişdir. Ermənistan ordusunda panika, isterika vüsət almışdı. Özlərinin etirafına görə, 10 min fərari olmuşdu. Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmadı. Budur Azərbaycan övladının ruhu, Vətənə olan bağlılığı. Qarabağın tacı olan Şuşanı - bu alınmaz qalanı alaraq biz Şuşada Azərbaycan bayrağını ucaltdıq. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb və o vaxt işğal altında qalan ərazilərdən çıxmağa məcbur olub.

Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılmışdır. Müharibədən keçən il yarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, daha da müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci Komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci Komando hərbi hissəsi açılır. Növbəti Komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Bu, bizim gücümüzü daha da artıracaq.

Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Biz müharibə istəmirik, heç vaxt istəməmişik. Amma biz istəyirik ki, bizim maraqlarımız təmin olunsun. Biz istəyirik ki, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin. Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Müharibədən cəmi bir il yarım keçibdir. Bu müharibəni unutmasınlar - nə onlar, nə də ki, sonrakı nəsillər. Bilsinlər ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var, Azərbaycan əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər.

Ordu quruculuğu ilə bağlı işlər planlı şəkildə gedir. Kəlbəcər rayonunda, Laçın rayonunda və azad edilmiş digər rayonlarda bir çox hərbi hissələr yaradılır və xidmət şəraiti də yaxşıdır. Bütün şərait təmin edilir ki, hərbçilərimiz xidmət şəraitini nəzərə alaraq daha yaxşı xidmət etsinlər.

Bu gün Ordu gününü Kəlbəcərdə qeyd etməklə biz hamımız qürur hissi keçiririk. Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC-Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri nəinki müdafiə etmirdi, hətta Kəlbəcəri qurban verməyə hazır idi, bunu da etdi. Ondan əvvəl Laçın və Şuşa işğal altına düşdü və Kəlbəcərin işğal altına düşməsi ermənilərin planlarında idi. AXC-Müsavat hakimiyyəti talançılıqla, soyğunçuluqla məşğul olurdu, orduya, ordu təchizatına fikir vermirdi, bu bölgədə yaşayan insanlara fikir vermirdi, onlara biganə yanaşırdı və Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan öz arzularına, çoxəsrlik arzularına çatdı ki, Qarabağla, - o zaman "Dağlıq Qarabağ" adlandırılırdı, - bu bölgə ilə Ermənistan arasında canlı bağlantı olsun. Kəlbəcər, Laçın dağları bu bağlantının qabağını almışdı. Kəlbəcərin itirilməsi strateji nöqteyi-nəzərdən böyük faciə idi. Eyni zamanda burada yaşayan insanların bir çoxu ermənilər tərəfindən öldürülüb, buradan çıxa bilən insanların bir çoxu Murov dağlarında donub və həyatlarını itirib. İndi buraya gələn hər bir insan Murov dağını aşaraq görür ki, nə qədər çətin yoldur, daim dumanlı yoldur və bu gün səhər mən oradan keçmişəm - yağış, duman. İnsanlar aprelin əvvəllərində o qarlı, şaxtalı havada oradan ayaqyalın keçməyə məcbur idilər. Onlara yolda da işgəncələr verildi, pusqular quruldu. Mənfur düşmən tərəfindən dinc əhali öldürüldü. Hərbi cinayətkarlar - Sarkisyan, Köçəryan bunu törətdilər: İkinci Qarabağ müharibəsi dövründə Xankəndiyə gəlmişdilər, guya orada müqavimət göstərəcəklər. Dovşan kimi, fərari kimi qaçdılar oradan. Ona görə Kəlbəcərin itirilməsi müharibənin ondan sonrakı gedişatına da, əlbəttə ki, mənfi təsir göstərmişdi.

Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz ilk növbədə hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu gününü qeyd edirik, qürurla qeyd edirik. Onu da deməliyəm, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu, vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur.

Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub - işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

*Ardı 4-cü səh.*

# Biz bu torpaqların sahibiyik,

## Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır




*Əvvəli 3-cü səh.*

Sonra Azərbaycan Respublikası Prezidentinin Komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxundu.

Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək and içdi.

Sonra Komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında "Komando andı"nı qəbul etdi.

Ali Baş Komandan "Komando andı"nı qəbul edən şəxsi heyəti təbrik etdi.

Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçdi.

Daha sonra Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış oldu, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlandı.

Qərargah binasındakı akt zalında Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev əməliyyat şəraiti barədə Ali Baş Komandana məlumat verdi.

Sonra Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkdi, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və "Dəmir yumruq" abidəsini ziyarət etdi.

Ali Baş Komandan Silahlı Qüvvələr Günü və yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyini və şəxsi heyəti bir daha təbrik etdi, onlara uğurlar arzuladı.















## Kəlbəcər-Laçın avtomobil yolunun inşası davam edir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır.

Qeyd olundu ki, layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulan avtomobil tunellərindən ikisində qazma prosesi davam etdirilir, birinin isə giriş və çıxış hissələrində işlərə başlanılıb.

# burada əbədi yaşayacağıq!

## "Qorçu" elektrik yarımstansiyası gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir.

Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və yolsuzluq şəraitində çəkilən ötürücü xətt üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

Yüksəkgərginlikli xəttin üzərindəki ildırımötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcək.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir.

Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində işçi heyət üçün yataqxana binası tikilir, lazımi şərait yaradılır.

Qeyd edək ki, yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin inşası planlaşdırılır.

Yeni yarımstansiya Laçın hava limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Perspektivdə Laçın dəhlizində 110 kV-luq "Laçın Şəhər" və "Zabux" yarımstansiyalarını tikməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə "Şuşa" yarımstansiyası ilə əlaqələndiriləcək.

Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində "Qubadlı" yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerjisistem üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

## Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanışlıq



İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlət başçısına layihə barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.

Qeyd edildi ki, "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

## Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən biridir







İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir.

Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək.

Qeyd olundu ki, aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.

Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

## Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub







İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov dövlət başçısına Kəlbəcər şəhərinin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarından sonra Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaq.

Prezident İlham Əliyev Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən "ACN" şirkətinin nümayəndələri ilə görüşdü.

Şirkətin icraçı direktoru **Laura KONTİ** dedi: Sizi görmək bizim üçün şərəfdir.

**Prezident İlham ƏLİYEV:** Gəldiyiniz üçün təşəkkür edirəm.

**Laura KONTİ:** Bizi dəvət etdiyiniz üçün minnətdarıq. Burada olmaqdan məmnunluq və şərəf hissi keçiririk. Təşəkkür edirəm. Xüsusilə bu möhtəşəm mühitdə, gözəl təbiətdə olmaq heyrətamizdir. Bura bizim olduğumuz ən gözəl yerlərdən biridir.

**Prezident İlham ƏLİYEV:** Bəli, bütün bu ərazilər belədir. Bütün bu ərazilər yaşıllıqdır.

**Laura KONTİ:** Təbiət heyrətamizdir. Təbiət bizim layihənin ilham mənbəyidir.

*Ardı 6-cı səh.*

# Biz bu torpaqların sahibiyik,

## Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub




*Əvvəli 5-ci səh.*

Dövlət başçısı İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxdı.

Prezident İlham Əliyevə Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksi barədə məlumat verildi. Qeyd olundu ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.

**"ACN" şirkətinin nümayəndəsi:** Ermənilər buranı işğal ediblər, lakin burada yaşamayıblar.

**Prezident İlham ƏLİYEV:** Yaşamayıblar və hər şeyi dağıdıblar.

**Şirkətin nümayəndəsi:** Hər şeyi bir-bir dağıdıblar.

**Prezident İlham ƏLİYEV:** Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər. Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su-elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

**Şirkətin nümayəndəsi:** Mən su-elektrik stansiyalarının dağıdılmasını görmüşəm.

**Laura KONTİ:** Hər şey yandırılmışdır.

Sonra dövlət başçısı İşğal və Zəfər muzeylərinin kompleksinin təməlini qoydu.

## "İstisu" mineral su zavodunda gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq

İyunun 26-da Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, istifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər "İstisu" mineral su zavodunun təməlini qoydu.

Qeyd edək ki, "İstisu" bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir.

Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.





## Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatı diqqət mərkəzindədir





İyunun 26-da Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısına məlumat verilib ki, Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər bu gün də davam etdirilir. İşlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən "Gəncə-2" yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilib. Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında bu xətt müstəsna rol oynayacaq. Bu, Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətdir. Dağlarda texnikanın rahat hərəkət etməsi üçün əvvəlcə yol inşa edilib.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin yüksək dağlıq ərazidə yerləşməsinə və çətin şəraitə baxmayaraq, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən işlər bu gün də sürətlə davam etdirilir. Sovet dövründə elektrik enerjisinin olmadığı ucqar ərazilərdə belə müasir elektrik şəbəkələr qurulur. Rayonun Alagöllər və digər əraziləri ilk dəfə "Azərişıq" ASC tərəfindən elektrik enerjisi ilə təmin olunur, Zod qızıl yatağı ərazisinə 35 kV-luq mühafizəli, izolyasiyalı kabel xəttinin çəkilməsi işləri davam edir.

Görülən işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilib, bir istiqamətdə 110 kv-luq, dörd müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılıb.

Bundan başqa, altı müxtəlif istiqamətdə 35 kV-luq müasir izolyasiyalı kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. Həmçinin 110/35 kV-luq "İstisu" yarımstansiyasının, Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxeminin yaradılması planlaşdırılıb.

## Kəlbəcərdə 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək





İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına stansiyada görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, "yaşıl enerji" strategiyasına uyğun olaraq hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su-elektrik stansiyası tikilir.

Kiçik su-elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsi görülən bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyaların idarə edilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

"Azərenerji" ASC-nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.

Qeyd edilib ki, növbəti illərdə Kəlbəcər və Laçın rayonlarında yenidən qurulması təklif edilən digər kiçik su-elektrik stansiyalarının ümumi gücü 82,2 MVt təşkil etsə də, yeni hesabatlara əsasən, bu həcmi iki dəfə artırmaq mümkün olacaq.

# burada əbədi yaşayacağıq!

## "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvətidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına sanatoriyada görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Diqqətə çatdırıldı ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.

Prezident İlham Əliyev "İstisu" sanatoriyasının təməlini qoydu.

Sonra dövlət başçısı çıxış etdi.





## Prezident İlham Əliyevin çıxışı



- Kəlbəcər və Laçın rayonlarına mənim səfərim başa çatır. Keçən il olduğu kimi, bu il də burada - İstisu qəsəbəsində başa çatır. İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda arxada gördüyünüz "İstisu" sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə - İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Bu dağıntılar erməni faşizminin təzahürüdür. Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatoriyanı da dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir.

Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün - Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə - yeni yaradılmış Komando qüvvələri ilə Ordu gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə - Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, Müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi.

Eyni zamanda bu fürsətdən istifadə edərək son bir il ərzində burada görülmüş işlərlə də tanış oldum. Görürdüm, baxırdım, mənim göstərişlərim necə yerinə yetirilir, ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı hansı əlavə addımlar atılmalıdır. Çünki bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir. Ona görə ki, biz hələ də Murov aşırımından keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Ona görə bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq, əlbəttə, bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Amma buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su-elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su-elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Yollar çəkilir. Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Təsəvvür edin, 10-dan çox tunel. Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir. Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu həm mülki əhali üçün, həm hərbçilər üçün, həm də müdafiə nöqteyi-nəzərdən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha da çox ola bilər. Çünki burada hər tərəf dağlardır, meşələrdir. Qarabağ bölgəsində isə indi 10-dan çox tunel, 9 viaduk, onlarca körpü inşa edilir. Görün, həm Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər görülür. Çünki bunlar - elektrik enerjisi və yol əsasdır. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Bu gün mənə eyni zamanda digər infrastruktur layihələrinin icrası ilə bağlı məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində, - müharibədən cəmi il-yarım keçib, - bu genişmiqyaslı işlərin görülməsi həm gücümüzü, niyyətimizi, iradəmizi göstərir, bir daha xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Bu gün Kəlbəcər şəhərinin Baş planı mənə təqdim edildi. Bu Baş planı hazırlayan şirkət Zəngilan şəhərinin Baş planını da hazırlayıb. Mən o vaxt demişdim ki, Zəngilan şəhəri təbiətə sıx inteqrasiya olunmalıdır, park-şəhər olmalıdır, Kəlbəcər də həmçinin. Kəlbəcərin də özünəməxsus füsunkar təbiəti var. Kəlbəcər şəhərinin Baş planının təsdiq olunması, əlbəttə ki, bu təbii gözəlliyi ehtiva edir. Artıq ilin sonuna qədər müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcəkdir. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq aşıq mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu, ancaq Kəlbəcər şəhərinin Baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik.

Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik - çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, - 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, - çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bu gün eyni zamanda Kəlbəcər şəhərində İşğal və Zəfər muzeylərinin təməli qoyuldu. Azad edilmiş bütün şəhərlərdə mənim göstərişimlə İşğal və Zəfər muzeyləri inşa edilməlidir. Artıq bir neçə şəhərdə layihələr təsdiqlənib. Bu gün Kəlbəcər şəhərində də bu layihə təsdiqləndi və təməl daşı atıldı.

Yəni biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Biz isə qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində mindən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci "ağıllı kənd" layihəsi istismara verilmişdir. Yəni bunu biz edirik, biz - bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu, çox genişmiqyaslı işdir.

Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

# İrimiqyaslı yenidənqurma işləri azad edilmiş ərazilərin mükəmməl bərpasına zəmin yaradır



Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyası iyunun 27-də işini davam etdirib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada videoformatda çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar.

Hörmətli tədbir iştirakçıları.

Ümumdünya Şəhər Forumunda çıxış etməyimdən məmnunam.

Bu il Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzvlüyünün 30 illiyi tamam olur. Bu mühüm hadisəni qeyd etmək məqsədilə cari ilin mart ayında Azərbaycanın mədəniyyət paytaxtı olan, azad edilmiş Şuşa şəhərində BMT qurumlarının iştirakı ilə münaqişədən və pandemiyadan sonrakı dövrdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına həsr edilmiş çox mühüm tədbir təşkil edilmişdir.

Tədbir iştirakçıları Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Azərbaycanın əldə etdiyi tərəqqi, eləcə də azad olunmuş ərazilərin dirçəldilməsi və oraya həyatın qaytarılması ətrafında müzakirələr aparmışlar.

"2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyi" və "Yeni Şəhər Gündəliyi" dayanıqlı urbanizasiyanı və şəhərlərimiz üçün daha yaxşı gələcəyi təmin etmək üzrə səylərimizi istiqamətləndirir. Paytaxt Bakının tarixi simasını qorumaqla bərabər, biz onun infrastrukturunun yenidən qurulmasına və müasirləşdirilməsinə nail olmuşuq. Qeyd etmək lazımdır ki, Bakının və Azərbaycanın digər şəhərlərinin müasirləşdirilməsi və yenidən qurulması zamanı biz şəhərlərin inkişafı baxımından yeni imkanlar və təcrübə əldə etmişik. Ən gözəl şəhərlərdən biri hesab olunan Bakı misilsiz memarlığı, park və bulvarları ilə tarixi irs və müasirliyin ahəngliyini özündə birləşdirir.

Azərbaycanın öz ərazilərini Ermənistanın 30 illik işğalından azad etməsi ilə nəticələnən 2020-ci il Vətən müharibəsindən sonra bizim üçün dayanıqlı şəhər inkişafı daha böyük dəyər kəsb edir. Ermənistan Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı şəhər və kəndləri qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək həmin əraziləri urbisid və kultursidin bariz nümunəsinə çevirib. Bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Yer üzündən silinib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu "Qafqazın Hirosiması" adlandırıblar. Füzuli şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan Ordusu orada bayrağımızı dalğalandırmağa bir dənə də olsun tikili tapa bilməyib.

Xarici diplomatlar, jurnalistlər və beynəlxalq QHT-lərin nümayəndələri azad edilmiş ərazilərə səfərləri zamanı bu vandalizmin şahidi olmuş və dağıntıların tam miqyasını sənədləşdirmişlər.

Ermənistanın 30 illik işğalına baxmayaraq, Azərbaycan müharibə səhifəsini çevirmək, münasibətləri normallaşdırmaq və bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi əsasında Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir. Azərbaycan sülh danışıqları üçün 5 əsas prinsip irəli sürüb və Ermənistan onları qəbul edib. İnanırıq ki, sülh müqaviləsi bölgəni sülh və əməkdaşlıq regionuna çevirə bilər.

Hazırda Azərbaycan müasir tarixin ən mürəkkəb və iddialı bərpa-yenidənqurma işlərindən birini həyata keçirir. Yenidənqurma prosesi minalardan təmizlənmə ilə başlayır. Kütləvi minalanma qarşımızda duran ən böyük çətinlikdir və bu, yenidənqurma işlərini, məcburi köçkünlərin qayıdışını ləngidir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə bir milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 220-dən artıq Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb.

Azərbaycan azad edilmiş ərazilərdə müasir şəhər planlaşdırılması həyata keçirir, "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyalarını tətbiq edir.

Məcburi köçkünlərimiz 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkib və doğma yurdlarından məhrum edilib. Məcburi köçkünlərin qayıdışı üçün ilk pilot layihə Zəngilan rayonunun Ağalı kəndində reallaşdırılıb. Bu ilin may ayında Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar. Bu gün Ağalı "ağıllı kənd"i dünyanın ən müasir kəndlərindən biridir.

Azərbaycan işğaldan azad olunmuş Füzuli şəhərində səkkiz aydan az müddətdə hava limanı inşa edib. İşğaldan azad olunmuş Zəngilan və Laçın rayonlarında hazırda daha iki hava limanının tikintisi davam edir.

Azad edilmiş bəzi şəhərlərin baş planları artıq hazırdır. Şuşa şəhərinin Baş planı onun möhtəşəm tarixi irsinin qorunması üzərində qurulub.

Qarabağ bölgəsinin sənaye mərkəzinə çevriləcək Ağdamda biz on minlərlə sakin üçün nəzərdə tutulmuş tamamilə yeni şəhər inşa edirik. Ərazisi 200 hektar təşkil edən Ağdam Sənaye Parkı artıq fəaliyyət göstərir, sərmayədarlara və sahibkarlara açıqdır.

Zəngilan şəhəri onun təbiətə inteqrasiyası və park şəhərinə çevrilməsi baxışı ilə inşa edilir.

Ümumilikdə, yenidənqurma prosesində bizim hədəfimiz keyfiyyət və sürəti birləşdirməkdir. Bu prosesdə ətraf mühitin qorunması prioritetlərimiz sırasında olacaq.

Məqsədimiz Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq inklüziv, təhlükəsiz, dözümlü və dayanıqlı şəhər və kəndlərin inşasıdır. Yeni şəhərlərdə, kəndlərdə yaşamaq və işləmək şəraiti vəhdət təşkil edəcək.

Bütün bu işlər Azərbaycanın öz maliyyə resursları hesabına aparılır.

Hesab edirik ki, Azərbaycan tərəfindən belə iri miqyasda aparılan yenidənqurma işləri azad edilmiş ərazilərimizi şəhər inkişafı sahəsində mükəmməllik laboratoriyasına çevirir. Azərbaycan bu sahədə nəhəng təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşəcək.

Bununla yanaşı, azad edilmiş ərazilərdə yenidənqurma sahəsində ölkəmizlə həmrəylik və beynəlxalq dəstək bizim üçün mühüm əhəmiyyətə malikdir. Bu, Azərbaycanın öz nəcib fəaliyyətində tək olmadığı ilə bağlı inamımızı gücləndirəcək.

Biz artıq Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Avropa İttifaqı ilə birlikdə işğaldan azad olunan üç rayonumuzda bərpa və yenidənqurma ehtiyaclarının birgə dəyərləndirilməsini həyata keçirmişik.

Bu ilin mart ayında Azərbaycana səfəri çərçivəsində BMT-nin Yaşayış Məskənləri Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə gələcək əməkdaşlığımızı müzakirə etmək imkanımız oldu. Xanım icraçı direktor azad olunmuş Ağdam şəhərinə səfər etdi və dağıntıların miqyasının şahidi oldu. Biz azad edilmiş ərazilərimizin yenidən qurulması sahəsində UN-HABITAT ilə daha sıx əməkdaşlıq etmək arzusundayıq və təşkilatın mütəxəssislərinin yenidənqurma prosesinin iştirakçıları olmasını gözləyirik.

Azərbaycan ilə UN-HABITAT arasında bu il Azərbaycanda, Ağdamda illik Milli Şəhər Forumunun təşkil olunması məsələsi də müzakirə edilir.

Çıxışımın sonunda böyük məmnuniyyətlə elan etmək istəyirəm ki, Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə evsahibliyi etmək arzusundadır və buna hazırdır. Əminəm ki, yüksəksəviyyəli beynəlxalq tədbirlərə evsahibliyi etməkdə böyük təcrübəyə malik ölkə olan Azərbaycanda Ümumdünya Şəhər Forumunun keçirilməsi uğurlu olacaqdır.

Forumun işinə uğurlar arzulayıram. Təşəkkür edirəm.

❖ ❖ ❖

Qeyd edək ki, BMT-nin Yaşayış Məskənləri Proqramı (UN-HABITAT) tərəfindən hər iki ildənbir surətli urbanizasiyanın yaratdığı problemlərə həsr olunmuş Ümumdünya Şəhər Forumu keçirilir. Ümumdünya Şəhər Forumunun 11-ci sessiyası iyunun 30-dək davam edəcək.

BMT-nin Yaşayış Məskənləri Proqramı 1976-cı ildə Kanadanın Vankuver şəhərində keçirilmiş "Yaşayış məskənləri və dayanıqlı şəhər inkişafı" üzrə birinci konfransın (I HABITAT konfransı) nəticəsi olaraq 1978-ci ildə BMT qurumu kimi yaradılıb. Təşkilatın baş qərargahı Keniyanın paytaxtı Nayrobidə yerləşir. UN-HABITAT-ın icraçı direktoru malayziyalı xanım Maimuna Mohd Şərifdir. Xanım Maimuna Mohd Şərif 2022-ci ilin martında ölkəmizdə səfərdə olub, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilib. Səfər çərçivəsində icraçı direktor işğaldan azad edilmiş Ağdam şəhərində olub.

Xatırladaq ki, 1996-cı ildə İstanbulda keçirilmiş "Yaşayış məskənləri və dayanıqlı şəhər inkişafı"na dair II HABITAT konfransında "Məskunlaşma Gündəliyi" qəbul edilib. "Məskunlaşma Gündəliyi"nin əsas məqsədi hər kəs üçün adekvat sığınacaq və şəhərləşən dünyada dayanıqlı insan məskunlaşmasının inkişafından ibarət olub.

2016-cı ildə keçirilmiş III HABITAT konfransında "Yeni Şəhər Gündəliyi" adlı sənəd qəbul edilib. Gündəliyin əsas hədəfləri arasında gecəqondularda yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılması, təmiz içməli su və sanitar şəraitin təmin edilməsi mühüm yer tutur.

UN-HABITAT 90-dan çox ölkədə müxtəlif sahələr üzrə layihələr həyata keçirir. Bu layihələr şəhər qanunvericiliyi, torpaq və idarəçilik, şəhər planlaşdırılması, şəhər iqtisadiyyatı, şəhərlərdə əsas xidmətlər, mənzil və gecəqondu şəraitinin yaxşılaşdırılması, risklərin azaldılması və reabilitasiya məsələlərini əhatə edir.

UN-HABITAT donorların dəstəyi ilə dünyanın bir sıra ölkələrində münaqişələrdən sonrakı dövrdə bərpa-quruculuq işlərinə dəstək göstərir. 2009-cu ildə Şri-Lankadakı münaqişənin başa çatmasından sonra UN-HABITAT 31 min ailənin dağılmış evlərinin bərpasını və 420 min köçkünün həyat şəraitini yaxşılaşdıran infrastruktur layihələrini reallaşdırıb. Oxşar fəaliyyət 2019-cu ildə İraqda da həyata keçirilib.

Hazırda ölkəmizdə şəhərsalma mövzusunda illik əsasda konfransın keçirilməsi ilə bağlı Azərbaycan ilə UN-HABITAT arasında məsləhətləşmələr aparılır. İlk konfransın bu ilin payızında Ağdam şəhərində keçirilməsi nəzərdə tutulur.

Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə şəhərsalma prosesinə UN-HABITAT-ın ekspertinin cəlb olunması ilə bağlı danışıqlar aparılır.

Azərbaycan bu yaxınlarda təşkilata 1,5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi edib.

# İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın haqq işini, ərazi bütövlüyünü həmişə dəstəkləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət prioritetlərində müsəlman ölkələri ilə əməkdaşlığın xüsusi yer tutduğunu qeyd edərək, bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla aparıldığını bildirdi. Dövlət başçısı ölkəmizin İƏT ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi işində çox fəal çalışdığını qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Qoşulmama Hərəkatına üzv olan bir çox müsəlman ölkələri ilə də sıx əməkdaşlıq edir. Bununla əlaqədar dövlət başçısı bu günlərdə Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis ediləcəyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlət başçısı işğal illərində ermənilər tərəfindən tarixi və mədəni abidələrimizin, o cümlədən məscidlərimizin vəhşicəsinə darmadağın edildiyini bildirərək bunu xalqımıza qarşı mədəni soyqırımı, bütün müsəlman ölkələrinə qarşı təhqir kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma layihələrindən, o cümlədən dini abidələrimizin bərpası istiqamətində görülən işlərdən danışdı.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini qeyd etdi. Hissein Brahim Taha Azərbaycanın İƏT üçün çox önəmli ölkə olduğunu bildirərək dövlətimizin başçısının lider kimi fəaliyyətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, İƏT Prezident İlham Əliyevin üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətindəki mövqeyinin dünya miqyasında təşviq edilməsi üçün yorulmaz səylər göstərir.

Prezident İlham Əliyev BMT tərəfindən də təqdir edilən və İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurasının birgə əməkdaşlığının təzahürü olan Bakı Prosesinin mədəniyyətlərarası dialoqa verdiyi töhfəni xüsusi qeyd etdi.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında həmrəyliyin önəmi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı bildirildi və onun qarşısının alınması istiqamətində birgə fəaliyyətin aparılmasının vacibliyi vurğulandı.

# Azərbaycan və Gürcüstan arasında dostluq münasibətləri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə zəng edib.

Dövlətimizin başçısı İrakli Qaribaşviliyə ad günü münasibətilə təbriklərini çatdırıb, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

İrakli Qaribaşvili göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm! Bugünkü bayramı qəhrəman xalq kimi başımız uca qeyd etdiyimizə görə bizim Prezidentimizə, cəsarətli əsgər və zabitlərimizə təşəkkür edirəm! Mərdliyinizə və dözümlülüyünüzə görə çox sağ olun! Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyinizə görə sizə minnətdarıq!

Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin. Belə qəhrəman oğullar böyütmüş ana və ataların qarşısında baş əyir, onlara səbir diləyirəm.

Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün!"

# Yaponiya portalı Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri barədə məlumatlar yayıb

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri, burada iştirak etdiyi tədbirlər barədə məlumatlar yayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayımlanan məlumatlarda 2020-ci ilin payızında düşmən tapdağından azad edilən həmin rayonlarda Azərbaycan hökuməti tərəfindən aparılan böyük bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib.

Yaponiyalı oxuculara Kəlbəcər-Laçın yolunun tikintisi, 30 ilə yaxın müddətdə işğal altında qalmış və erməni vandalizmi nəticəsində xarabazarlığa çevrilmiş bu rayonlara yeni həyatın qayıtması, azad olunmuş şəhərlərdə inşa edilən İşğal və Zəfər muzeyləri, təbii şəraitin və mövcud relyefin çətinliyinə baxmayaraq, Kəlbəcər-Laçın zonasında bütün infrastruktur layihələrinin uğurla icra edilməsi barədə məlumatlar çatdırılıb. Həmin rayonlarda aparılan nəhəng quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən şəxsən diqqətdə saxlandığı xüsusi vurğulanıb.

# Ərəb mətbuatı Azərbaycan Prezidentinin İƏT-in Baş katibi ilə görüşü barədə xəbərlərə geniş yer ayırıb

İƏT-ə üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyi (UNA), Səudiyyə Ərəbistanının rəsmi SPA agentliyi və "Əl-Cəzirə" qəzeti, Misirin MENA agentliyi və "Əl Əhram" nəşri, ərəb ölkələrinin digər agentlikləri və informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin İƏT-in Baş katibi Hissein Brahim Tahanı qəbul etməsi barədə xəbərlərə geniş yer verib.

AZƏRTAC-a istinadla yayılan materiallarda qeyd olunur ki, Prezident İlham Əliyev Azərbaycanın İƏT-lə səmərəli əməkdaşlıq həyata keçirdiyini və islam həmrəyliyinin gücləndirilməsi işində çox fəal çalışdığını söyləyib. O, həm İkinci Qarabağ müharibəsində, həm də postmüharibə dövründə təşkilatın ölkəmizin haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirib.

Ərəb mətbuatının materiallarında diqqətə çatdırılır ki, İƏT-in Baş katibi Azərbaycanın bu təşkilat üçün çox önəmli ölkə olduğunu bildirərək dövlətimizin başçısının lider kimi fəaliyyətini yüksək qiymətləndirib. Baş katib qeyd edib ki, İƏT Prezident İlham Əliyevin üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətindəki mövqeyinin dünya miqyasında təşviq edilməsi üçün yorulmaz səylər göstərir.

AZƏRBAYCAN www.azerbaijan-news.az 29 iyun 2022-ci il 

# A.İ.Vəzirovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Alla İqoryevna Vəzirovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2022-ci il*

# E.S.Rüstəmovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətlərinə görə Elman Sirac oğlu Rüstəmov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2022-ci il*

# "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380, № 12, maddə 1893; 2020, № 7, maddə 829, № 11, maddə 1331, № 12 (I kitab), maddə 1452; 2021, № 8, maddə 895) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.3-cü maddədən "və ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla) sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın;

1.2. 7-ci maddə üzrə:

1.2.1. 7.0-cı maddənin birinci abzasında "Müavinətlər" sözü "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hallar nəzərə alınmaqla, müavinətlər" sözləri ilə əvəz edilsin;

1.2.2. 7.0.4-cü maddədə "edilmiş şəxsin əmək pensiyası hüququ olmadıqda" sözləri "edildikdə" sözü ilə əvəz edilsin;

1.2.3. 7.0.5.1-ci maddədən "("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsində göstərilən hal istisna olmaqla)" sözləri çıxarılsın.

**Maddə 2.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0-cı, 7.0.4-cü və 7.0.5.1-ci maddələri sosial müavinətlərin bu Qanunun qüvvəyə mindiyi gündən əvvəlki dövr üçün təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə tətbiq edilmir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899, № 12, maddə 1332) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.0.1-1-ci maddə əlavə edilsin:

"1.0.1-1. **şərti əmək pensiyası** - ailə başçısını itirməyə görə əmək pensiyasının hesablanması zamanı şəxsin vəfat etdiyi tarixə əməkhaqqına (təminat xərcliyinə, dövlət məvacibinə) münasibətdə hesablanan şərti pensiya məbləğidir;";

1.2. 1.0.18-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.19-cu maddə əlavə edilsin:

"1.0.19. əməkhaqqındakı (təminat xərcliyindəki, dövlət məvacibindəki) sonrakı artımlar - əmək pensiyasına qulluq stajına görə əlavə alan şəxsin müvafiq vəzifədə işlədiyi vaxt əməkhaqqına (təminat xərcliyinə, dövlət məvacibinə) daxil olan ödənişlərdəki artımlar.";

1.3. 8-ci maddə üzrə:

1.3.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olan şəxslər";**

1.3.2. 8.1-ci maddəyə "doğub" sözündən sonra ", övladlığa və (və ya) qəyyumluğa götürüb" sözləri, "tərbiyə etmiş" sözlərindən sonra isə "və böyütmüş" sözləri əlavə edilsin və həmin maddədə "hər uşağa görə 1" sözləri "5" rəqəmi ilə əvəz edilsin;

1.3.3. 8.3-cü maddəyə "növbəti" sözündən əvvəl "və ya sağlamlıq imkanları məhdud uşağını" sözləri əlavə edilsin;

1.4. 9-cu maddə üzrə:

1.4.1. 9.1 - 9.3-cü, 9.6-cı və 9.7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"9.1. Axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

9.2. Hipovizqanizm xəstəliyinə tutulan şəxslərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin azı 5 il sığorta stajı olduqda bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş yaş həddi 20 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

9.3. Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışanların həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş şəxslərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda bu Qanunun 7-ci maddəsinə uyğun yaş həddi 15 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.";

"9.6. Hərbi qulluqçulara yaşa görə əmək pensiyası hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur. Aşağıdakı şəxslər istisna olmaqla, hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası təyin olunduqdan sonra yenidən hərbi xidmətə qəbul edilmiş əmək pensiyaçılarının əmək pensiyasının sonuncu təminat xərcliyinə görə yenidən hesablanmasına yol verilmir:

9.6.1. hərbi xidmətə yenidən qəbul edildiyi tarixdən ən azı 72 ay xidmət etmiş şəxslər;

9.6.2. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə hərbi xidmətə bərpa edilmiş şəxslər;

9.6.3. hərbi xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş şəxslər;

9.6.4. ali zabit heyətinə aid şəxslər.

9.7. Ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə azı 35 il qulluq stajı olan ədliyyə işçilərinin (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ vardır.";

1.4.2. 9.8-ci maddədə "9-cu" sözləri "9.1-ci" sözləri ilə əvəz edilsin və həmin maddəyə "müvafiq surətdə" sözlərindən sonra "bu Qanuna uyğun olaraq" sözləri əlavə edilsin;

1.5. 14.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"14.4. Bu Qanunun 18.2-ci və 18.3-cü maddələrinə uyğun olaraq ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının sığorta hissəsinin ailə üzvünə düşən məbləği "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.1 - 7.0.3-cü, 7.0.5-ci və ya 7.0.6-cı maddələrində nəzərdə tutulmuş sosial müavinətlərin məbləğindən az olduqda, həmin ailə üzvünün qeyd olunan müavinətləri almaq hüququ olduğu halda, o, ailə başçısını itirməyə görə pensiya əvəzinə müvafiq sosial müavinəti almaq hüququna malikdir.";

1.6. 18-ci maddə üzrə:

1.6.1. 18.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Ailə üzvlərindən biri (bu Qanunun 20.1.13-cü maddəsinə uyğun olaraq ailə başçısının qulluq stajına görə əlavə təyin olunmuş əri (arvadı) və övladları istisna olmaqla) öz seçimi ilə digər növ əmək pensiyasını, yaxud bu Qanunun 14.4-cü maddəsinə əsasən sosial müavinəti (ailə başçısını itirməyə görə müavinət istisna olmaqla) aldıqda ona ailə başçısının itirilməsinə görə düşən əmək pensiyasının məbləği digər ailə üzvləri arasında bölüşdürülməklə onların əmək pensiyasının məbləği yenidən hesablanır.";

1.6.2. 18.3-cü maddəyə birinci halda "sığorta hissəsinin" sözlərindən sonra "(bu Qanunun 29.1-ci maddəsi nəzərə alınmaqla)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vəfat etmiş ailə başçısının vəfat etdiyi tarixə əmək pensiyasının yenidən hesablanmasında istifadə olunmamış pensiya kapitalı ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatı zamanı nəzərə alınır.";

1.7. 20-ci maddə üzrə:

1.7.1. 20.4-cü, 20.6-1-ci, 20.7-1-ci, 20.8-1-ci, 20.9-1-ci, 20.13-cü, 20.20-ci, 20.23-cü, 20.27-ci və 20.29-cu maddələrdə "almalı olduğu" sözləri "şərti əmək pensiyası" sözləri ilə əvəz edilsin;

1.7.2. 20.6-cı və 20.9-cu maddələrə "əmək pensiyasına" sözlərindən sonra "səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

1.7.3. 20.15-ci maddədə "maddədə" sözü "Qanunun 20.14-cü maddəsində" sözləri ilə əvəz edilsin;

1.8. 22-1.2.1-ci maddəyə "sığortaolunana" sözündən sonra "(bu Qanunun 8-ci maddəsinin müddəaları nəzərə alınaraq həmin maddədə göstərilən şəxslər də daxil olmaqla)" sözləri əlavə edilsin;

1.9. 34-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 34. Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə**

34.1. Əmək pensiyaçısının əmək pensiyasının bir növündən başqa növünə keçmək hüququ vardır.

34.2. Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə bu barədə ərizənin və müvafiq əmək pensiyasının təyin edilməsi üçün bu Qanunun 31.2-ci maddəsində göstərilən sənədlərin təqdim edildiyi tarixdən, şəhid ailə üzvlərinə münasibətdə isə bu Qanunun 5.1-ci maddəsinin şərti nəzərə alınaraq ailə başçısına şəhid statusunun verildiyi tarixdən hesablanmaqla aparılır.";

1.10. 37-ci maddə üzrə:

1.10.1. 37.3.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"37.3.1. yaşa görə əmək pensiyasının pensiya təyin olunan günədək qazanılmış sığorta hissəsi tam məbləğdə ödənilir və pensiya təyin olunduqdan, həmçinin bu maddəyə əsasən yenidən hesablandıqdan sonrakı dövr üzrə qazanılan sığorta və yığım hissələri üzrə pensiya kapitalının toplanması davam etdirilir. Pensiyaçı işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdə və ya əmək pensiyası təyin olunduğu, yaxud bu maddəyə əsasən yenidən hesablandığı gündən sonra 6 il işlədikdə əmək pensiyası avtomatlaşdırılmış qaydada (bu Qanunun 37.3.2-1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) yenidən hesablanır. Bu zaman sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı pensiyaçının pensiya təyin edildikdən, yaxud bu maddəyə əsasən yenidən hesablandıqdan sonra işlədiyi ayların sayı qədər, lakin 72 aydan çox olmamaqla azaldılır;";

1.10.2. 37.3.2-ci maddənin ikinci cümləsinə "olunduqdan" sözündən sonra ", yaxud əmək pensiyası bu maddəyə əsasən yenidən hesablandıqdan" sözləri, "sığorta hissəsi" sözlərindən sonra isə "avtomatlaşdırılmış qaydada (bu Qanunun 37.3.2-1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla)" sözləri əlavə edilsin;

1.10.3. aşağıdakı məzmunda 37.3.2-1-ci maddə əlavə edilsin:

"37.3.2-1. Bu Qanunun 20-ci maddəsinə uyğun olaraq əmək pensiyasına qulluq stajına görə əlavə təyin edilmiş şəxslərin əmək pensiyasının sığorta hissəsinin bu Qanunun 37.3.1-ci və 37.3.2-ci maddələrinə uyğun olaraq yenidən hesablanması onların və ya ailə başçısını itirmiş ailə üzvünün müraciəti əsasında bu Qanuna uyğun olaraq həyata keçirilir;";

1.11. 45-ci maddənin ikinci cümləsi çıxarılsın.

**Maddə 2. Keçid müddəaları**

2.1. Bu Qanunla "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada verilmiş 9.1 - 9.3-cü, 9.6-cı, 9.7-ci və 14.4-cü maddələri əmək pensiyalarının bu Qanunun qüvvəyə mindiyi gündən əvvəlki dövr üçün təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə tətbiq edilmir.

2.2. Bu Qanunun 1.11-ci maddəsi bu Qanunun qüvvəyə mindiyi günədək təyin edilmiş yaşa görə əmək pensiyalarının yenidən hesablanmasına, eləcə də həmin günədək pensiya hüququ yaranmış şəxslərə yaşa görə əmək pensiyasının təyin edilməsi və yenidən hesablanması hallarına münasibətdə tətbiq edilmir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*

# Baş nazir Əli Əsədov ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub

İyunun 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov doğum günü münasibətilə İ.Qaribaşvilini təbrik edib, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətində ona uğurlar arzulayıb.

Telefon danışığı zamanı Azərbaycan-Gürcüstan münasibətlərinin müxtəlif sahələrdə inkişafı yüksək qiymətləndirilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusuna ali hərbi rütbələr təqdim edilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2022-ci il 25 iyun tarixli Sərəncamına əsasən təltif olunan bir qrup hərbi qulluqçuya müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən ali hərbi rütbələr təqdim edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 28-də hərbi qulluqçuları qəbul edən müdafiə naziri Ali Baş Komandanın göstərişinə əsasən ordu quruculuğu sahəsində həyata keçirilən ardıcıl tədbirlərdən və orduda aparılan genişmiqyaslı islahatlardan danışıb.

General-polkovnik Z.Həsənov vurğulayıb ki, dövlətin orduya göstərdiyi yüksək diqqət və qayğıya cavab olaraq, hər bir zabit üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməlidir.

Təltif olunan hərbi qulluqçular Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirərək onlara göstərilən etimadı doğruldacaqlarına, həmçinin Vətənə, xalqa və Ali Baş Komandana hər zaman sədaqətli olacaqlarına dair söz veriblər.

Müdafiə naziri təltif olunan hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb, müvafiq tapşırıq və tövsiyələrini çatdırıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 28-də Baş prokuror Kamran Əliyev Zaqatala Rayon Prokurorluğunun inzibati binasında Zaqatala, Qax və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 37 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Kamran Əliyev Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Bundan əlavə, Kamran Əliyev Şəki, Qəbələ və Gədəbəy rayonlarının hər birindən bir nəfər olmaqla vətəndaşları qəbul edərək müraciətləri üzrə konkret tapşırıqlar verib.

* * *

İyunun 28-də təhsil naziri Emin Əmrullayev Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarında qeydiyyatda olan sakinlər, eləcə də qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

Bu barədə AZƏRTAC-a Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, tələbələrin köçürülməsi, təhsil haqqı, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

E.Əmrullayev qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 530-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 6 mart tarixli 377 nömrəli, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2006-cı il 22 dekabr tarixli 499 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 530-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 9.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231, № 4, maddə 653, № 7, maddə 1220, № 8, maddə 1390; 2021, № 7, maddə 740, № 8, maddə 910) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "1.0.18-ci," sözlərindən sonra "9.1-ci," sözləri əlavə edilsin;

2.2. 2.2-ci bənddən ", 9.1-ci" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 2.1-2-ci bənd əlavə edilsin:

"2.1-2. həmin Qanunun 9.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

3. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1046; 2017, № 9, maddə 1655; 2018, № 5, maddələr 953, 970) 2.2-ci bəndindən "9.7.2-ci," sözləri çıxarılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 530-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2022-ci il*

Milli Məclisin iclasında

# Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün ayrılan vəsaitin həcmi artırılır

İyunun 28-də Milli Məclisin növbədənkənar sessiyasının plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Milli Məclisin nümayəndə heyətinin iyunun 23- 24-də Qırğızıstanın Çolpon-Ata şəhərinə işgüzar səfəri barədə məlumat verib.



Spiker bildirib ki, səfərdə məqsəd Türkdilli Ölkələrin Parlament Assambleyasının 11-ci plenar iclasında iştirak etmək idi. İyunun 24-də keçirilən iclasda müzakirələr TÜRK PA üzvü olan ölkələr arasında etimad və tərəfdaşlıq mühitinin möhkəmlənməsində parlament diplomatiyasının roluna həsr edilmişdi.

Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda etdiyi çıxışda türk birliyinin inkişafına həm hökumət, həm də parlament səviyyəsində dəstək verilməsinin xalqlarımızın mütəşəkkil bir qüvvə kimi formalaşmasında mühüm rol oynadığını bildirib. Qeyd edib ki, ötən ilin noyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən 8-ci Zirvə Görüşündə alınan mühüm qərarlar, o cümlədən bu əməkdaşlıq və tərəfdaşlıq qurumunun "Türk Dövlətləri Təşkilatı" adlandırılması türk dövlətləri rəhbərlərinin zamanın çağırışlarına adekvat münasibətinin növbəti təzahürü olmuşdur.

İclasda çıxışı zamanı spiker nəzərə çatdırıb ki, bu mənada, Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına təkan verən amil kimi qiymətləndirilməlidir. Sahibə Qafarova çıxışında müharibədən sonra Azərbaycanın regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması, ölkələrimiz arasında əməkdaşlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər haqqında da məlumat verib. Bildirib ki, artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə qaytarılmasına başlanacaqdır. Xüsusilə vurğulayıb ki, əldə edilmiş razılaşmalara uyğun olaraq, Zəngəzur dəhlizinin açılması türk dünyasının coğrafi bağlantısının bərpası və nəticə etibarı ilə ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi yolunda mühüm bir addım olacaqdır.

İclasda Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan parlamentlərinin sədrləri, Türkmənistan parlamentinin sədr müavini, Macarıstan nümayəndə heyətinin rəhbəri və türk əməkdaşlıq təşkilatlarının nümayəndələri çıxış ediblər.

Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda qəbul edilmiş ən mühüm qərarlardan biri təşkilatın adının Türk Dövlətlərinin Parlament Assambleyasına dəyişdirilməsi olub. Bu qərar təşkilatın inkişaf tarixində keyfiyyət baxımından yeni səhifə açır. TÜRK PA-nın 11-ci plenar iclası Çolpon-Ata Bəyannaməsinin qəbulu ilə başa çatıb.

Spiker onu da qeyd edib ki, Çolpon-Atada bir sıra rəsmi görüşlər də keçirilib. Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun iclasda iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə görüşündə TÜRK PA-nın əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilib, təşkilatın gələcək fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri bildirib ki, onun Qırğızıstan Joqorku Keneşinin Sədri Talant Mamıtov və Qazaxıstan Parlamenti Məclisinin Sədri Yerlan Koşanov ilə ikitərəfli görüşlərində ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafında parlamentlərimizin rolunun gücləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Sahibə Qafarova çıxışının sonunda parlament nümayəndə heyətinin Qırğızıstana səfərinin səmərəli keçdiyini qeyd edib və bununla əlaqədar olaraq nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra iclasda gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəliyin birinci məsələsi olan "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Komitə sədri qanun layihəsinin birinci oxunuşunda müzakirəsi zamanı ətraflı məlumat verildiyini bildirib. Qeyd edib ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində sənədin ikinci oxunuşda müzakirəsi Əmək və sosial siyasət, Təbii sərvətlər və ekologiya komitələrinin, müvafiq dövlət orqanları nümayəndələrinin iştirakı ilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilib. Tahir Mirkişili büdcə müzakirələrinin Şuşada keçirilməsi imkanını yaratdığına görə dövlət başçısına və təşkilati işlərdə dəstəyə görə Milli Məclisin Sədrinə minnətdarlıq edib və müzakirəyə çıxarılan büdcə layihəsində də vəsaitlərin böyük bir hissəsinin işğaldan azad olmuş ərazilərdəki bərpa-quruculuq işlərinə ayrıldığını vurğulayıb.

Bildirilib ki, müzakirə olunan qanun layihəsində 2022-ci il dövlət büdcəsinin gəlirlərinin 2381,8 milyon manat artırılaraq 29197,8 milyon manata, xərclərinin isə 2424,8 milyon manat artırılaraq 32303,8 milyon manata çatdırılması təklif olunub. Bu zaman dövlət büdcəsinin kəsirinin 43 milyon manat artaraq 3106 milyon manat məbləğində olacağı proqnozlaşdırılıb. Qeyd olunub ki, artırılan gəlirlərin 65 faizinin qeyri-neft, 35 faizinin isə neft gəlirləri hesabına formalaşacaq. Eyni zamanda Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin 1192 milyon manat azaldılması nəzərdə tutulub.

Komitə sədri dövlət büdcəsində artırılan və xərclər arasında yerdəyişmələrin hesabına yaranan ehtiyat vəsaitlərin yönləndirildiyi istiqamətlər barədə də danışıb. Bildirib ki, Böyük qayıdışın daha sürətlə təmin edilməsi üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol-nəqliyyat infrastrukturunun yaradılması, həmçinin ölkəmizin digər regionlarında nəqliyyat-kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi üzrə layihələrin maliyyələşdirilməsi üçün 1477 milyon manat, müdafiə, hərbi və milli təhlükəsizlik sahəsində tədbirlərin maliyyələşdirilməsi üçün 588 milyon manat, Vətən müharibəsi zamanı ölkəmizin bəzi rayon və şəhərlərində zərər çəkmiş yaşayış və qeyri-yaşayış sahələrinin bərpası və yenidən qurulması üzrə tədbirlərin maliyyələşdirilməsi üçün 34 milyon manat vəsait ayrılıb. Həmçinin sosial müdafiə tədbirlərinin maliyyələşməsinə 519 milyon manat, ərzaq təhlükəsizliyi üzrə əlavə ehtiyatların yaradılması üçün 193 milyon manat, sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin dəstəklənməsi üçün 163 milyon manat və bir sıra zəruri kommunal və kommunikasiya xərclərinin təmin edilməsi üçün 42 milyon manat vəsait nəzərdə tutulub.

Tahir Mirkişili dövlət büdcəsinə təqdim edilən dəyişikliklərin dövlət və cəmiyyət qarşısında duran mühüm çağırışların dəf edilməsinə, görülən işlərin genişləndirilməsinə, yarana biləcək problemlərin önlənməsinə xidmət edəcəyini, 2022-ci il üçün ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək üçün mühüm maliyyə bazası yaradacağını bildirib.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin ikinci oxunuşları ilə bağlı məlumat verib.

Musa Quliyev böyük maliyyə artımı ilə müşayiət olunan büdcənin dürüstləşdirilməsi layihələrinin komitələrdə ikinci oxunuşda müzakirəsinin Şuşada keçirilməsi ilə bağlı təəssüratlarını, bu tədbirin tarixi əhəmiyyəti barədə fikirlərini bölüşüb. O, iclasın Şuşada keçirilməsinə yaratdığı şəraitə görə Prezident İlham Əliyevə və Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib, bu qürurverici günləri xalqımıza bəxş edən Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli ordumuzun xidmətlərini vurğulayıb.

Büdcənin dürüstləşdirilməsi ilə bağlı təqdim olunan dəyişikliklərin Qarabağın və Şərqi Zəngəzurun daha sürətli bərpasına xidmət etdiyini bildirən komitə sədri xüsusi vurğulayıb ki, Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondunun büdcəsindəki artımlar əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək. DSMF-nin büdcəsinin həm gəlirləri, həm xərcləri bərabər olaraq, 299,5 milyon manat artırılacaq. Bunların böyük bir hissəsi dövlət başçısının sərəncamı ilə vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə yönəldiləcək.

Qeyd edilib ki, uşağın anadan olmasına görə müavinətlərə ayrılan vəsait daha 4 milyon manat artırılıb ki, bu artım uşağın doğulmasına görə müavinətin məbləğinin bu ilin əvvəlindən 200 manatdan 300 manata çatdırılması ilə əlaqədardır.

Təqdim olunan layihəyə əsasən, İşsizlikdən sığorta fondunun 2022-ci il üçün həm gəlirləri, həm də xərcləri 1 milyon manat artırılır ki, bu da işsiz və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımızın daha geniş şəkildə aktiv məşğulluq tədbirlərinə cəlb olunmasına maddi təminat yaradacaq.

Komitə sədri Tahir Mirkişili "İşsizlikdən Sığorta Fondunun 2022-ci il büdcəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədlə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyini bildirib.

Qanun layihələrinin müzakirəsində Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli, komitə sədri Siyavuş Novruzov, deputatlar Əliabbas Salahzadə, Elnur Allahverdiyev, Aydın Mirzəzadə, Cavid Osmanov, Qüdrət Həsənquliyev qanun layihələrini dəstəklədiklərini bildiriblər, dəyişikliklər barədə fikirlərini, suallarını və qeydlərini səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov 2022-ci ilin yenidən baxılan dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlərlə bağlı qanun layihələrinin parlamentdə operativ və geniş müzakirələrinin keçirilməsinə görə Milli Məclisin rəhbərliyinə və deputatlara təşəkkür edib, müzakirələrdə qaldırılan məsələlərə aydınlıq gətirib. Maliyyə naziri Samir Şərifov 2022-ci ilin dövlət büdcəsinə dəyişikliklər nəticəsində neftin bir barelinin qiymətinin 85 ABŞ dolları səviyyəsində götürülməsi, neft və qaz qiymətləri ilə bağlı hökumətin gözləntilərini və arqumentlərini səsləndirib, işğaldan azad edilmiş ərazilərin bərpasına ayrılacaq vəsaitdən danışıb. Bildirib ki, 2 milyard 986 milyon manat məbləğindəki yeni xərclər ilk növbədə Böyük qayıdışın təmin edilməsi üzrə Qarabağ və Şərqi Zəngəzurun vacib infrastruktur layihələrinin həyata keçirilməsinə yönəldilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deputatların qeydlərinə və təkliflərinə münasibət bildirib, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun təklif olunan büdcə dürüstləşdirmələrinin məqsədinin məhz dövlətin sosialyönümlü siyasətinin davamı olduğunu qeyd edib. Bildirib ki, Birinci və İkinci Qarabağ müharibəsi veteranlarına heç bir halda fərq qoyulmur və qoyulmayacaq. O vurğulayıb ki, post-müharibə dövründə 103 min şəxsə 190 min dövlət dəstəyi xidməti göstərilib. Onlara həm sosial ödənişlər təyin olunub, həm məşğulluqları təmin edilib. Eləcə də onların avtomobillə, protezlə təmin olunması və reabilitasiyası istiqamətində tədbirlər görülüb. Qeyd olunub ki, bu kateqoriyadan olan insanlara daha geniş və əhatəli xidmət göstəriləcək.

Müharibə veteranlarının ödənişlərinin məbləği ilə bağlı nazir açıqlayıb ki, 2 il öncə müharibə iştirakçılarına verilən müavinətlər 50 faizdən çox artırılaraq 80 manata çatdırılıb, lakin sosial ödənişlərlə bağlı daimi islahatlar fonunda bu məsələyə də yenidən baxılacaq. Nazir vurğulayıb ki, burada əsas hədəf müharibə veteranlarının geniş şəkildə məşğulluğa cəlb edilməsidir, çünki onların çoxu əmək qabiliyyəti olan şəxslərdir. Vurğulanıb ki, bu istiqamətdə həyata keçirilən layihələr çərçivəsində təxminən 7 minə yaxın müharibə veteranı işə cəlb edilib, 8 minə yaxın müharibə iştirakçısı da özünüməşğulluq proqramlarından yararlanıb.

Müzakirələrin yekununda hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, növbəti iki məsələ dövlət başçısının bir məktubu ilə parlamentə daxil olub, Azərbaycan Respublikası və Qırğız Respublikası arasında imzalanmış bir memorandumun və bir sazişin təsdiq edilməsi ilə bağlıdır. Sədr qeyd edib ki, qanun layihələri beynəlxalq müqavilələrlə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə əsasən bir oxunuşda qəbul ediləcək.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikasının və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında" Memorandumun təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Komitə sədri Azərbaycan və Qırğızıstan arasında əlaqələrdən söz açaraq dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin və parlamentlərarası əlaqələrimizin inkişafı ilə bağlı fikirlərini bölüşüb, memorandumun bu istiqamətdə əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, iki ölkə arasında Dövlətlərarası Şuranın yaradılması münasibətlərimizi yeni bir keyfiyyət mərhələsinə yüksəldəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, saziş 22 maddədən və əlavədən ibarətdir, Azərbaycan və Qırğızıstan arasında hava əlaqəsini yaratmaq məqsədilə bağlanıb. O, sazişdən irəli gələn məsələlər və hüquqlar, təsbit olunan müddəalar barədə danışıb.

Deputat Razi Nurullayevin fikirləri və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyi dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova "Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektiv qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının "Azərqızıl" Dövlət Şirkəti ilə R.V. İnvestment Group Services, LLC ABŞ arasında bağlanmış Sazişdə Dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsini müzakirəyə təqdim edib. Qeyd edib ki, bu qanun layihəsi də beynəlxalq sazişlə bağlı olduğu üçün bir oxunuşda qəbul ediləcək.

Bu məsələyə dair Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Komitə sədri bildirib ki, dəyişikliklərin təklif olunduğu saziş "Azərqızıl" Dövlət Şirkəti ilə R.V. İnvestment Group Services, LLC ABŞ arasında 1997-ci il avqustun 20-də bağlanıb və 1998-ci il 17 mart tarixli qanunla təsdiq edilib. Komitə sədri sazişdə adıçəkilən "Azərqızıl" ləğv edildiyi üçün saziş üzrə hüquq və vəzifələrin Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ötürüldüyünü diqqətə çatdıraraq sazişdə aparılan dəyişikliklər barədə məlumat verib.

Komitə sədri Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sənədlə bağlı müsbət rəy verdiyini bildirib. Komitə sədri Siyavuş Novruzovun da fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra iclasda üçüncü oxunuşda olan "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinə baxılıb. Qanun layihəsinin üçüncü oxunuşu haqqında məlumat vermək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə söz verilib. Komitə sədri ötən ilin büdcəsinin gəlirləri və xərcləri ilə bağlı göstəricilər haqqında əvvəlki oxunuşlarda kifayət qədər geniş məlumat verildiyini qeyd edərək vurğulayıb ki, 2021-ci il dövlət büdcəsinin icrası Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi inkişaf və dəstək kursunun ardıcıl həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yüksəldilməsi və ölkədə makro-iqtisadi sabitliyin qorunması istiqamətində qarşıya qoyulan hədəflərə çatmaq üçün lazımi maliyyə təminatını yaratmışdır.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən Tahir Mirkişili bildirib ki, sənəd özəl baytarlıq xidmətlərinin ƏDV-dən azad edilməsi, fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin isə sadələşdirilmiş vergi ödəyicisi kimi sabit pul məbləğində vergiyə cəlb edilməsi ilə bağlıdır. Qeyd olunub ki, layihə ilə bağlı heç bir irad və təklif irəli sürülməyib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) təsisatının 20 illiyi (2002-2022)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat vermək üçün söz Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərova verilib. Nizami Səfərov bildirib ki, birinci oxunuşda layihə konseptual olaraq qəbul olunub, oxunuşda sənədin mətnində heç bir dəyişikliyin aparılmadığını nəzərə alaraq səsverməyə qoyulmasını təklif edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin 10-cu məsələsindən başlayaraq son 6 məsələsi ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxın olan qanun layihələridir.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli növbəti 4 məsələni - "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Konstitusiya Məhkəməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. Əli Hüseynli diqqətə çatdırıb ki, əvvəlki oxunuşda layihələrlə bağlı ətraflı məlumat verilib. O vurğulayıb ki, icra hakimiyyəti orqanlarında artıq əməyin ödəniş sistemi təkmilləşdirilib və təklif olunan sənədlərdə də məhkəmə hakimiyyəti, qanunvericilik hakimiyyəti orqanlarında, İnsan hüquqları üzrə müvəkkil təsisatında icra hakimiyyəti orqanları ilə eyni vahid əməkhaqqı sisteminə keçid nəzərdə tutulub.

14-cü və 15-ci məsələlərlə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Tahir Mirkişili bildirib ki, 14-cü məsələ olan "Hesablama Palatası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) yuxarıda qeyd olunan dəyişikliklərin Hesablama Palatasının əməkhaqqı sistemində də tətbiq edilməsini nəzərdə tutub. 15-ci məsələ - Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə komitə sədri qeyd edib ki, dəyişiklik Milli Məclisin deputatına öz səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün qanunla müəyyən edilmiş miqdarda verilən aylıq pul təminatının ləğvi ilə bağlıdır. Bununla əlaqədar olaraq müvafiq maddə Vergilər Məcəlləsindən də çıxarılır.

Gündəliyin son 6 qanun layihəsi də ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Azərbaycana rəsmi səfərə gəlib

İyunun 28-də Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva Azərbaycana rəsmi səfərə gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, hər iki ölkənin səfirləri Hüseyn Quliyev, Bahrom Aşrafxanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ölkə rəsmiləri ilə bir sıra görüşlər keçirəcək, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında, Azərbaycan-Özbəkistan Qadın sahibkarlarının ikitərəfli biznes forumunda iştirak edəcəkdir.

Rəsmi səfər iyulun 2-də başa çatacaq.

*"Azərbaycan"*

# Azərbaycanda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransı keçiriləcək

İyunun 30-da ölkəmizdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı keçiriləcək. Konfrans "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə dünyanın 40-dan çox ölkəsinin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatlarının təmsilçilərinin iştirakı gözlənilir. Konfransda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin iş qaydaları, təşkilatın rəsmi loqosu və bayrağı təsdiq ediləcək, "Bakı Bəyannaməsi" qəbul olunacaq, qurumun sədri və sədr müavinləri seçiləcək.

Tədbirdə iştirak edən nümayəndə heyətləri rəhbərlərinin ölkə rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Konfrans çərçivəsində tədbir iştirakçıları Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, o cümlədən mədəniyyət paytaxtı Şuşa şəhərində olacaq, burada aparılan quruculuq və abadlıq işləri ilə tanış olacaqlar.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2022-ci ilin iyul ayında vətəndaşların qəbulu

### C Ə D V Ə L İ

| *Qəbulu aparan şəxs* | *Qəbul günləri* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 1, 18 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 1, 8, 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin AdministrasiyasınınVətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 28 |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# İslam Əməkdaşlığı Təşkilatının Turizm Nazirlərinin XI konfransı işini başa çatdırıb

İyunun 28-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Bakıda keçirilən İslam Əməkdaşlığı Təşkilatının Turizm Nazirlərinin XI konfransında "Turizmin inkişafı üzrə Qətnamə" və "Bakı Bəyannaməsi" qəbul edilib.




AZƏRTAC xəbər verir ki, "Turizmin İnkişafı üzrə Qətnamə" sənədində azad olunmuş torpaqlarda təbii resursların qeyri-qanuni istismarı, ekosistem və şəhər infrastrukturunun, xüsusilə mədəni və tarixi irsin məhv edilməsi, eləcə də Ermənistan ərazisində İslam mədəni və tarixi abidələrinin dağıdılması pislənilib.

Həmçinin qətnamədə Azərbaycanın işğaldan azad olunan torpaqlarında infrastrukturun inkişafı layihələrinin icrasına üzv dövlətlərin özəl sektorunun cəlb edilməsi imkanları haqqında qərar qəbul edilib.

"Bakı Bəyannaməsi" sənədində qarşılıqlı maraqlar əsasında üzv ölkələr arasında sağlamlıq, eko, mədəni və kənd turizminin inkişafı, birgə təşəbbüslərin dəstəklənməsi, sərgilərdə iştirak üzrə əməkdaşlıq, dayanıqlı turizmin inkişafı istiqamətində müştərək tədbirlərin həyata keçirilməsi, islam mədəni və tarixi irsinin qorunması və təbliği, turizmin islam haqqında təsəvvürlərin təkmilləşməsində oynayacağı rol, maliyyə institutlarının və özəl sektorun üzv dövlətlərdə turizmə investisiya qoyuluşuna cəlbi kimi məsələlər öz əksini tapıb.

Konfransda İƏT üzvlərinin turizm nazirlərinin növbəti 12-ci görüşünün Mərakeş Krallığında keçirilməsi qərarlaşdırılıb.

Həmçinin 2023-cü il üçün Türkiyənin Şanlıurfa şəhəri və 2024-cü il üçün isə Özbəkistanın Xivə şəhəri İslam dünyasının mədəniyyət paytaxtı seçilib.

Konfransda təşkilata üzv dövlətlərin turizm nazirləri və nazir müavinləri, səfirlər, İƏT-in 7 alt institutu olan beynəlxalq təşkilatların təmsilçiləri, dövlət rəsmiləri və ekspertlər daxil olmaqla 39 ölkədən 160-dan artıq nümayəndə iştirak edib.

Konfrans iştirakçılarının iyunun 29-da Şuşa şəhərinə səfəri nəzərdə tutulur.

# Azərbaycan, Qazaxıstan və Türkiyə respublikalarının xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin ilk üçtərəfli görüşü keçirilib

İyunun 27-də Bakıda Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Türkiyə Respublikasının xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin ilk üçtərəfli görüşü keçirilib.




AZƏRTAC xəbər verir ki, üçtərəfli görüşün yekununda birgə Bakı Bəyannaməsi imzalanıb. Qeyd olunub ki, Bakı Bəyannaməsi həm üç ölkə arasında nəqliyyat və kommunikasiya sahəsində işbirliyini gücləndirəcək, həm də ölkələrimizin tranzit potensialının genişləndirilməsinə töhfə verəcək. Üç ölkənin birgə ardıcıl səyləri ilə yeni yaradılan üçtərəfli format həm regional, həm də daha geniş səviyyədə təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın gücləndirilməsi baxımından effektiv mexanizm kimi özünü doğruldacaq.

Görüşdə çıxış edən Azərbaycanın Respublikasının xarici işlər naziri Ceyhun Bayramov üç qardaş ölkənin xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin birinci görüşünün əhəmiyyətindən danışıb. Qeyd edilib ki, bu görüş həm ikitərəfli, həm də çoxtərəfli platformalarda yüksək səviyyədə tərəfdaşlıq münasibətlərini bölüşən üç ölkənin nəqliyyat və bağlantılar sahəsində əməkdaşlığının daha da genişləndirilməsi imkanlarının müzakirəsinə şərait yaradıb.

"Müzakirələr zamanı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişaf etdirilməsinə, bu istiqamətdə mövcud olan yük daşımalarına diqqət yetirdik. Mövcud problemlər, dar boğazların aradan qaldırılması istiqamətində bu coğrafiyada nəqliyyat və kommunikasiya əməkdaşlığımızın genişləndirilməsi istiqamətlərinə xüsusi nəzər saldıq, digər tərəfdən çox maraqlı yeni dəyərli fikirlər və təkliflər səsləndirildi", - deyə xarici işlər naziri Ceyhun Bayramov diqqətə çatdırıb.

O bildirib ki, Azərbaycan, Türkiyə və Qazaxıstan arasında növbəti üçtərəfli görüş Qazaxıstanda keçiriləcək.

Sonra çıxış edən Qazaxıstanın xarici işlər naziri Muxtar Tleuberdı deyib ki, Orta Dəhlizin rolunu gücləndirmək üçün Transxəzər vasitəsilə tranzit daşımaların daha da inkişafı və asanlaşdırılması məqsədilə işlər görüləcək. O, "Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu da daxil olmaqla, Orta Dəhlizə əlavə həcmdə yüklərin cəlb edilməsinə yönəlmiş əməkdaşlıqda əldə edilən nailiyyətlərin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb".

Qazaxıstanın xarici işlər naziri bildirib ki, nəqliyyat və informasiya-kommunikasiya infrastrukturlarının, o cümlədən BTQ dəmir yolu xəttinin inkişafı ilə qarşılıqlı əlaqələrin daha da intensivləşdirilməsi önəmlidir.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxışında üç qardaş ölkə arasında əlaqələrin inkişafının region üçün əhəmiyyətindən danışaraq deyib: "Üçtərəfli görüşün əhəmiyyəti olduqca vacibdir. Bu cür görüşlər yeni imkanlar yaradır. Azərbaycan və Türkiyə arasında bütün sahələr üzrə əlaqələr inkişaf etdirilir. Azərbaycanla enerji sahəsində imkanları daha da genişləndirmək istəyirik".

Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdıran Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində türkün gücünü bütün dünyaya göstərdi.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif, "Bir pəncərə" prinsipi tətbiq olunur.

Hazırda qlobal təhlükəsizliyə, sabitliyə və iqtisadi inkişafa qarşı təhdidlərin artdığı bir şəraitdə üç ölkənin nəqliyyat və bağlantılar sahəsində əməkdaşlığının gücləndirilməsi regional səviyyədə risklərin və çağırışların qarşısının alınması və azaldılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan, Qazaxıstan və Türkiyə arasında sıx ikitərəfli əməkdaşlıq mövcuddur, habelə bu dövlətlər regional əməkdaşlıq kontekstində, o cümlədən Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər regional təşkilatlarda qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirirlər. Nəqliyyat və kommunikasiya sahələri ölkələrimiz arasında regional iqtisadi əməkdaşlığın təməl daşlarından biridir.

Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən əlverişli coğrafi mövqe sözügedən üç dövləti Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələri kimi gündəmə gətirir. Azərbaycan, Qazaxıstan və Türkiyə, həmçinin Xəzər dənizi - Qara dəniz əməkdaşlığının gücləndirilməsində əsas rol oynayırlar. Bu baxımdan həmin ölkələr arasında, habelə dövlətlərin ərazilərindən keçməklə ticarət potensialından tam istifadə edilməsi üçün effektiv nəqliyyat və kommunikasiyanın olması vacibdir.

Nəqliyyat bağlantısı məsələsi Azərbaycanın milli iqtisadi inkişaf gündəliyində hər zaman mühüm yer tutub. Magistral avtomobil yolları, dəmir yolu və sərhəd infrastrukturu, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı artan tranzit axınını qarşılamaq üçün səmərəli imkanlar yaradır. Ölkələrimizin təşəbbüsü və dəstəyi ilə tranzit imkanlarının artırılmasına və hər üç ölkə tərəfindən tranzit daşımalarda fəal istifadə olunmasına yönəlmiş beynəlxalq nəqliyyat və kommunikasiya infrastrukturu layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi həyata keçirilib.

Hər üç dövlət tranzit potensialının artırılmasında "Transxəzər Şərq-Qərb Orta Dəhliz" - Azərbaycan, Qazaxıstan və Türkiyə ərazilərindən keçən multimodal nəqliyyat marşrutuna xüsusi önəm verir. Orta Dəhlizə əlavə həcmdə yüklərin cəlb edilməsi üçün birgə səylər gücləndirilməlidir. Məhz bu baxımdan üçtərəfli əməkdaşlıq çox aktualdır, çünki son regional hadisələr Asiya və Avropa arasında ticarət üçün Orta Dəhlizin əhəmiyyətinin artdığını açıq şəkildə nümayiş etdirir.

Orta Dəhlizin tərkib hissəsi kimi Zəngəzur dəhlizinin əhəmiyyəti və perspektivləri böyükdür. Bu dəhliz Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi çərçivəsində daha yaxşı bağlantını artırmaq potensialına malikdir və Qazaxıstan-Azərbaycan-Türkiyə nəqliyyat marşrutu üzrə daha qısa əlaqəni təmin edir. Dəhlizin tez bir zamanda işə salınmasını təmin etmək üçün bu prosesdə bütün tərəflərin öhdəliklərini yerinə yetirməsi vacibdir.

# İƏT çərçivəsində əməkdaşlıq gündəliyinin aktual məsələləri ətrafında fikir mübadiləsi aparılıb

İyunun 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Baş katibi səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov Hissein Brahim Tahanın bu önəmli vəzifəyə seçilməsi münasibətilə bir daha təbriklərini çatdırıb. Nazir Azərbaycanın İƏT ilə əməkdaşlığa yüksək əhəmiyyət verdiyini və bu günədək təşkilatla çox fəal əməkdaşlığın aparıldığını qeyd edib. İƏT-in hər zaman Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq mövqeyinə dəstək verdiyi, keçmiş münaqişənin həlli ilə bağlı, habelə postmünaqişə mərhələsində müvafiq qətnamələrin qəbul edildiyi minnətdarlıqla vurğulanıb.

Baş katib Hissein Brahim Taha Azərbaycanın İƏT-in fəal üzvü olduğunu, İslam həmrəyliyinin gücləndirilməsinə verdiyi töhfəni qeyd edib. O, səfəri çərçivəsində Azərbaycanın dövlət başçısı ilə keçirilmiş görüşə məmnunluqla istinad edib. Baş katib İƏT turizm nazirlərinin konfransına uğurla evsahibliyi etdiyi üçün Azərbaycanı təbrik edib.

Nazir Ceyhun Bayramov Baş katibin şəxsən bu konfransda iştirakının tədbirə öz müsbət töhfəsini verdiyini bildirib. Azərbaycanın İƏT, habelə onun rəhbərliyi altındakı digər təşkilatlarla bundan sonra da səmərəli əməkdaşlığı davam etdirməkdə qətiyyətli olduğu qeyd edilib. Nazir Ceyhun Bayramov İƏT rəhbərinə bölgədə mövcud olan münaqişəsonrası vəziyyət, aparılan bərpa və quruculuq işləri barədə məlumat verib. O, səfəri çərçivəsində Baş katibin azad edilmiş ərazilərə getməsinin buradakı vəziyyətlə, o cümlədən onilliklər boyu Ermənistan tərəfindən törədilən dağıntılar və hazırda Azərbaycan tərəfindən aparılan quruculuq işləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını söyləyib.

Görüşdə həmçinin İƏT çərçivəsində əməkdaşlıq gündəliyinin aktual məsələləri, dünyada cərəyan edən hadisələr fonunda, xüsusilə də islam ümmətini narahat edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri Türkiyə Maarif Fondunun sədri ilə görüşüb

İyunun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Maarif Fondunun sədri Birol Akgün ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Azərbaycan ilə qardaş Türkiyə arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin bütün istiqamətlər üzrə inkişaf etdiyini və qarşılıqlı səfərlərin dinamikasının bu inkişafın bariz göstəricisi olduğunu bildirib. Türkiyə ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əlaqələrin inkişaf etdiyi qeyd olunub, bu xüsusda iyunun 27-də yeni bir format olan Azərbaycan, Qazaxıstan, Türkiyə xarici işlər və nəqliyyat sahəsi üzrə məsul nazirlərin birinci görüşünün uğurla keçirildiyi qeyd edilib. Əlaqələrin genişlənməsinin regional sülh və tərəqqiyə müsbət töhfə verdiyi vurğulanıb.

Birol Akgün Azərbaycan ilə təhsil sahəsində uğurla davam edən əməkdaşlığı qeyd edib, gələcək fəaliyyət planları barədə məlumat verib. Azərbaycanın Təhsil Nazirliyi ilə həyata keçirilən uğurlu birgə fəaliyyətin gələcəkdə də davam etdirilməsində maraq ifadə edilib.

Tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin qarşılıqlı maraq doğuran məsələləri üzrə fikir mübadiləsi aparıblar.

# Bakıda Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin XIV Forumu keçirilib

İyunun 28-də Bakıda Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin (UAESEB) XIV Forumu keçirilib. Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ RK) təşkilatçılığı ilə baş tutan forumda Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Makedoniya, Rumıniya və Şimali Kipr Türk Cümhuriyyətindən nümayəndə heyətləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül dəstələri düzüb, əklil qoyublar. Sonra Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad olunub.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Şəhidlər xiyabanına gələn forum iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüblər.

Sonra forum öz işinə başlayıb. Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) və ATİAHİ RK-nın sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycanda təhsil sahəsinin inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb. Azərbaycanda təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətini təşkil etdiyini vurğulayan S.Möhbalıyev deyib: "Hər il Azərbaycanda təhsil infrastrukturunun inkişafı istiqamətində mühüm addımlar atılır, yeni-yeni məktəb binaları inşa olunur, təmir edilir, təhsil müəssisələrinin maddi-texniki təminatı daha da gücləndirilir, təhsilin inkişafını təmin edən dövlət proqramlarının icrası davam etdirilir, yeni strateji layihələr qəbul olunur. Həmçinin təhsil sahəsində çalışan insanların sosial təminatının yaxşılaşdırılması da daim dövlət tərəfindən diqqət mərkəzində saxlanılır. Hər il dövlət büdcəsində təhsilə ayrılan vəsaitin miqdarı əhəmiyyətli şəkildə yüksəlir, təhsil işçilərinin əməkhaqları artırılır.

ATİAHİ RK-nın fəaliyyətindən danışan S.Möhbalıyev qeyd edib ki, təşkilat təhsil işçilərinin əmək hüquqlarının qorunması, onların sosial müdafiəsinin, asudə vaxtının təşkili, təhsil sektorunda çalışan işçilər və təhsilalanlarla müəssisə rəhbərləri arasındakı əmək münasibətlərinin normal məcrada qurulması, təhsil işçilərinin əmək, sosial, iqtisadi hüquqları ilə bağlı yarana biləcək ziddiyyətlərin aradan qaldırılmasında və qanuni mənafelərinin qorunması ilə bağlı müəyyən etdiyi məqsədlərə nail olmaq üçün Azərbaycan Təhsil Nazirliyi ilə də yaxından əməkdaşlıq edir. Həmçinin təşkilat həmkarlar ittifaqı üzvlərinə daha yaxşı xidmət edə bilmək üçün dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən yararlanır.

S.Möhbalıyev bildirib ki, ATİAHİ RK-nın təmsil olunduğu beynəlxalq təşkilatlardan biri də UAESEB-dir. "Bu birlik 2006-cı ildə "Türk Egitim-Sen", Qazaxıstan Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı, Qırğızıstan Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı və Azərbaycanın Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə qərarı ilə təsis edilib. Sonradan bu birliyə İraq, Şimali Makedoniya, Şimali Kipr Türk Cümhuriyyəti, Rumıniya və Kosovoda fəaliyyət göstərən türkdilli təşkilatlar da qoşulub. Ümid edirik, bu təşkilatın sıraları daha da genişlənəcək və tez bir zamanda Özbəkistan və Türkmənistanın, eləcə də digər qardaş ölkələrin həmkarlar ittifaqı təşkilatları da bu quruma qoşulacaq. Bu birliyin yaradılması türkdilli ölkələrin təhsil sahəsi üzrə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatlarının, eləcə də türkdilli xalqların yaşadığı ölkələrdə fəaliyyət göstərən təşkilatlar, dərnəklər arasında əlaqələrin qurulmasına xidmət edir. Əminliklə demək olar ki, təşkilat uğurlu fəaliyyət göstərir və keçən müddət ərzində qarşısına qoyduğu məqsədlərə nail ola bilib", - deyə S.Möhbalıyev vurğulayıb.

O bildirib ki, bu gün türkdilli ölkələr arasında çox sıx münasibətlər var. Bu ölkələr bir-birinə yaxından dəstək verir. Azərbaycan olaraq biz bu dəstəyi İkinci Qarabağ müharibəsində bir daha gördük.

AHİK sədri UAESEB-in XIV Forumunun fəaliyyətinə uğurlar arzulayıb.

Sonra tədbirdə Azərbaycanın təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək forumun əhəmiyyətindən, təhsil sahəsində türkdilli ölkələr arasında əlaqələrin inkişafından və son illərdə Azərbaycan təhsilində əldə olunmuş nailiyyətlərdən bəhs edib.

Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin və "Türk Egitim-Sen"in sədri Talip Geylan UAESEB-in yaradılmasının məqsədlərindən, funksiyalarından, həyata keçirdiyi layihələrdən danışıb. Bildirib ki, türkdilli ölkələr arasında əlaqələr bütün sahələri əhatə etməklə yüksələn xətlə inkişafdadır. O bildirib ki, rəhbərlik etdiyi qurum türkdilli dövlətlər arasında mövcud münasibətlərin daha da dərinləşməsində, təhsil sahəsində əməkdaşlığın genişlənməsində əhəmiyyətli rol oynamaqdadır.

O, Vətən müharibəsində Azərbaycanın öz torpaqlarını düşməndən təmizləməsini bütün türk dünyasının parlaq qələbəsi adlandırıb. Türk dövlətlərinin heç bir ölkənin torpaqlarında gözünün olmadığını qeyd edən Talip Geylan deyib: "Biz bunu 44 günlük Vətən müharibəsində də gördük. Azərbaycan Ordusu dünya ölkələrinin təzyiqlərinə baxmayaraq, qəhrəmanlıq göstərərək tarixi Zəfərə nail oldu. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm. Qarabağ problemi bitib və Qarabağ Azərbaycandır! Ermənistan gərək bundan sonra normal qonşuluq siyasətini davam etdirsin. Əks halda, özünə problem yaradacaq".

Digər çıxış edənlər - Qazaxıstan Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının sədri Aygül Mukaşeva, Qırğızıstan Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının sədri Asilbek Toktoqulov, Şimali Makedoniya İnformasiya və İdarəetmə nazirinin müşaviri, Üfüq Dərnəyinin sədri Elvin Hasan, "Kipr Türk Məmur-Sen"in sədri Akın Manqa, Rumıniya Türk Demokrat Birliyi Təhsil Komissiyasının sədri Vildan Bormambet və Özbəkistan Təhsil, Elm və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının sədri Ravşan Bedilov ölkələrində həmkarlar ittifaqlarının fəaliyyətindən, cəmiyyətin inkişafında rolundan, ölkənin ictimai həyatında xidmətlərindən söz açıblar. Həmçinin UAESEB-in ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfələrdən danışıblar. Bütün çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə azərbaycanlı həmkarlarına təbriklərini çatdırıb və bunu türk dünyasının şanlı tarixi adlandırıblar.

Tədbirin sonunda UAESEB-in XIV Forumunun yekun Bəyanatı səsə qoyularaq qəbul edilib.

# *Səttar MÖHBALIYEV:* "Azərbaycan hər zaman keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olub"

"Ermənistanın torpaqlarımızı işğalı nəticəsində qaçqın və məcburi köçkünlər 30 il ərzində yurdlarından didərgin düşdü. Həmçinin Azərbaycan qaçqın və məcburi köçkünlərin problemlərini təkbaşına həll etdi. Məcburi köçkünlər üçün şəhərciklər tikildi və onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ciddi işlər görüldü".




AZƏRTAC xəbər verir ki, bu fikirləri Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin (UAESEB) XIV Forumunda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev söyləyib.

Milli Məclisin deputatı Ermənistanın xalqımıza qarşı törətdiyi soyqırımı haqqında danışıb. Qeyd edib ki, xalqımızın başına gətirilən faciələrə dünya ölkələri susdu. İnsan haqlarının müdafiəçisi qismində çıxış edən Avropa ölkələri və təşkilatları Azərbaycana qarşı ikili standartlar nümayiş etdirib.

Ölkəmizin heç zaman müharibə istəmədiyini vurğulayan S.Möhbalıyev deyib: "Azərbaycan hər zaman keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olub".

# Naxçıvan Beynəlxalq Hava Limanında yeni teleskopik trapın və maşın-mexanizmlərin təqdimatı olub

Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası gücləndirilib, yerli və beynəlxalq uçuşların təhlükəsiz təşkili təmin olunub. Aparılan quruculuq işləri, müasir infrastrukturun yaradılması hava limanında xidmətin səviyyəsini xeyli yüksəldib.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 28-də Naxçıvan Beynəlxalq Hava Limanında yeni teleskopik trapın və maşın-mexanizmlərin təqdimatı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hava limanında aparılan tikinti-quraşdırma işləri ilə maraqlanıb, maşın-mexanizmlərə baxıb.

Qeyd olunub ki, sərnişinlərin qarşılanması və yola salınması zamanı hava limanına gələn şəxslərin rahatlığını təmin etmək üçün aerovağzal kompleksinin Şərq və Qərb terminallarının girişində çardaq tikilib. Həmçinin artan tələbata uyğun olaraq "UBS Airport Systems" şirkəti tərəfindən yeni teleskopik trap quraşdırılıb. Teleskopik trap sərnişinlərin təyyarəyə minməsi üçün körpü, təyyarəni elektrik enerjisi ilə qidalandıran və mühərriki hava ilə işəsalma qurğusundan ibarətdir. Yığılmış vəziyyətdə uzunluğu 16,5, tam açılmış vəziyyətdə isə 37,5 metr olan teleskopik trap üçün 48 metrlik keçid yolu inşa edilib. Keçid yolu 6 müxtəlif ölçüdə soyuducu və qızdırıcı sistem, 5 kamera, 8 yanğın detektoru və səsverici avadanlıqla təchiz edilib.

Hava limanına 1 ədəd elektrobus, 2 baqajçəkmə traktoru və 2 baqajyükləyici avtokonveyer alınıb. 22-si oturacaq, 36-sı ayaqüstü olmaqla, 58 sərnişin yerlik elektrobusun sürət həddi saatda 70 kilometr, dolu batareya ilə gedilən məsafəsi 160-210 kilometrdir. Baqajçəkmə traktorlarının hər birinin yükçəkmə qabiliyyəti 4 ton, baqajyükləyici avtokonveyerin yükgötürmə qabiliyyəti isə 2 tondur.

Bildirilib ki, teleskopik trapı gərginliklə təmin etmək üçün yeni transformator binası tikilib, binada transformator, requlyator və generator, 4 video-nəzarət, 4 yanğın detektoru, kondisioner quraşdırılıb. Hava limanında elektriklə işləyən avtomobilləri enerji ilə təmin edən cihaz quraşdırılıb ki, bu da digər avtomobillərə də xidmət göstərəcək.

Görülən işlərlə tanışlıqdan sonra kollektivlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Prezident İlham Əliyevin tapşırığı və Nazirlər Kabinetinin müvafiq qərarı ilə 2021-ci il iyunun 23-də Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyinə verilib. Bu müddətdə Naxçıvan Beynəlxalq Hava Limanında müxtəlif işlər həyata keçirilib. İstifadəyə verilən üçüncü teleskopik trap və yeni alınmış texnika da bu tədbirlərin davamıdır. Hava limanında bu işlərin görülməsi vacib idi. 2022-ci ilin ötən dövründə Naxçıvan Beynəlxalq Hava Limanında yerli hava xətti üzrə 175 minə yaxın, beynəlxalq hava xətti üzrə isə 3500-ə yaxın sərnişin daşınıb. Sərnişin və təyyarələrin sayının artması xidmətin də müasir tələblərə uyğun qurulmasını zəruri edir. Muxtar respublikada hava nəqliyyatı sahəsində sərnişin sıxlığı iyun-avqust ayları arasında daha çox olur. Ona görə də Naxçıvan Beynəlxalq Hava Limanının öz vəsaiti hesabına qısa müddətdə maşın-mexanizmlər alındı, tikinti işləri aparılaraq sərnişinlərin rahatlığı təmin olundu".

Ali Məclisin Sədri kollektivi təbrik edərək bu işləri həyata keçirənlərə öz təşəkkürünü bildirib və qurulanların qorunması, sərnişinlərə nümunəvi xidmət göstərilməsi barədə tapşırıqlar verib.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli kollektiv adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib, bundan sonra da hava nəqliyyatının inkişafı sahəsində səylə çalışacaqlarına söz verib.

# UN HABITAT Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa-quruculuq prosesini dəstəkləyə bilər

## Yaxın gələcəkdə UN HABITAT tərəfindən texniki missiyanın Azərbaycana göndərilməsi nəzərdə tutulur

Ümumdünya Şəhər Forumunun (WUF) XI sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyəti BMT-nin Yaşayış Məskənləri Proqramının (UN HABITAT) mütəxəssisləri ilə ikitərəfli görüş keçirib.



AZƏRTAC-ın məlumatına görə, görüşdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Azərbaycanın şəhər və yaşayış məskənlərinin inkişafında təcrübəsindən danışıb və qeyd edib ki, hazırda Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə geniş bərpa-quruculuq işləri həyata keçirir, bütöv şəhər və kəndlər, yaşayış massivləri, infrastruktur müasir tələblər əsasında qurulur. Azad edilmiş ərazilərdə həyata keçirilən müasir quruculuq işlərinə "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyaları daxildir.

Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə bir neçə şəhərin Baş planı artıq hazırlanıb və bir neçə gün öncə Azərbaycan Prezidenti İlham Əliyevə Kəlbəcər şəhərinin Baş planı təqdim olunub. Azad edilmiş ərazilərdə infrastruktur layihələri sürətlə davam etdirilir, Qarabağda üç beynəlxalq hava limanından biri Füzuli rayonunda artıq istifadəyə verilib. Azad edilmiş ərazilərin yaşıl enerji bölgəsinə çevrilməsi Azərbaycan dövləti üçün əsas prioritetlərdən biridir, eləcə də infrastruktur quruculuğunda müasir şəhərsalma texnologiyalarına üstünlük verilir.

Azərbaycan və UN HABITAT arasında əməkdaşlığın önəmini vurğulayan A.Quliyev bildirib ki, yaxın gələcəkdə bu proqramın Azərbaycanda nümayəndəliyinin açılmasını məqsədəuyğun hesab edib və bu yolla mühüm logistik problemlərin aradan qalxacağını ifadə edib. Eyni zamanda Prezident İlham Əliyevin sessiyanın açılışındakı çıxışında növbəti sessiyanın Azərbaycanda keçirilməsini təklif etməsi Azərbaycanın bu foruma verdiyi diqqətin təcəssümüdür.

Azərbaycan Prezidentinin Zəngilan rayonu üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilanda görülən işlərdən danışıb, bu rayonda artıq tamamlanmış "ağıllı kənd" layihəsi barədə məlumat verib. Qeyd edilib ki, əsas hədəf təkcə ağıllı şəhər və kəndlərin qurulması deyil, effektiv idarə olunan yaşayış məskənləri, kreativ infrastrukturun yaradılmasıdır.

Azərbaycan Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, Azərbaycanın xüsusi tarixi-mədəni və strateji əhəmiyyətə malik Şuşa şəhərinin bərpası və yenidən qurulması, şəhərin dirçəldilməsi və gələcək inkişafını təmin etmək üçün zəruri planlaşdırma və layihələndirmə işlərinə başlanılıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, işğaldan azad olunmuş Qarabağda Azərbaycan bütün bərpa-quruculuq işlərini öz hesabına həyata keçirir. Beynəlxalq konfranslarda yaşayış məskənlərinin müasir tələblərə transformasiyası tez-tez təkrarlanır, lakin Azərbaycan Qarabağda transformasiya deyil, yaşayış məskənləri və infrastruktur yenidən yaradılır. Bu istiqamətdə isə beynəlxalq təcrübə, ekspertlərin quruculuq işlərinə cəlb olunması vacib amillərdir.

Həmçinin qeyd edilib ki, ərazilərin bərpasında vaxt və keyfiyyət amilləri də xüsusi önəm daşıyır. Belə ki, məcburi köçkünlər səbirsizliklə öz ata-baba yurdlarına geri dönəcəkləri günü gözləyirlər, lakin bunun üçün müasir keyfiyyət standartlarına cavab verən yaşayış məskənləri, infrastruktur və sosial-iqtisadi zəmin yaradılmalıdır. Görüşdə postmünaqişə dövründə yaşayış məskənlərinin inkişaf etdirilməsi və bərpa-quruculuq işləri üçün ən böyük maneələrdən biri olan minalar probleminə də toxunulub, müharibə başa çatdıqdan sonra 200-dən artıq şəxsin minaların qurbanı olduğu diqqətə çatdırılıb.

UN HABITAT əməkdaşları işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın apardığı bərpa-quruculuq işlərini yüksək qiymətləndiriblər. Tərəflər həmçinin Azərbaycanın məskunlaşma prosesində dəstəklənməsi istiqamətində fikir mübadiləsi də aparıblar. Qeyd edilib ki, "yaşıl enerji", "ağıllı şəhər" və " ağıllı kənd", infrastruktur və nəqliyyat ilə yanaşı sosial və iqtisadi aspektlərin inkişaf etdirilməsi, texniki dəstək və təcrübə mübadiləsi barəsində əməkdaşlıq imkanları mövcuddur və Azərbaycana yaxın gələcəkdə UN HABITAT tərəfindən texniki missiyanın göndərilməsi nəzərdə tutulur.

İkitərəfli görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdirinin müavini Nüsrət Süleymanov və Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin Rəqəmsal media ilə iş sektorunun baş məsləhətçisi Sultan Hacıyev, Azərbaycanın Polşadakı səfirliyinin əməkdaşları iştirak ediblər.

# Azərbaycan müasir tarixin ən mürəkkəb və iddialı bərpa-yenidənqurma fəaliyyətini həyata keçirir

Ümumdünya Şəhər Forumunun (WUF) XI sessiyası çərçivəsində nazirlər səviyyəsində "dəyirmi masa" təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev tədbirdə çıxış edib. O, bu il Azərbaycanın BMT-yə üzv qəbul edilməsinin 30 illik yubileyinin keçirildiyini diqqətə çatdırıb və bu münasibətlə Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığında Davamlı İnkişaf Məqsədləri istiqamətində böhranlardan sonra bərpa və yenidənqurmaya həsr olunmuş beynəlxalq tədbirin baş tutduğunu söyləyib.

Qeyd olunub ki, dayanıqlı urbanizasiya üçün beynəlxalq sənədlər olan 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik və Yeni Şəhər Gündəliyi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dünyada Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasına dair üç Könüllü Milli İcmal təqdim etmiş azsaylı ölkələr sırasında yer alır. DİM-lərə nailiyyət indeksi üzrə mümkün 100 baldan 73,5 bal toplayan Azərbaycan Davamlı İnkişaf Hesabatında 163 ölkə arasında 50-ci yerdədir.

Bildirilib ki, dayanıqlı şəhərsalma Azərbaycan öz ərazilərini 30 il boyu davam edən işğaldan azad etdikdən sonra daha da dəyər qazanıb. İşğal zamanı urbisid, kulturesid və ekosid nəticəsində 300-dən çox şəhər və kənd, mədəniyyət və dini obyektlər tamamilə dağıdılıb. Bundan başqa, münaqişəyə məruz qalmış ərazilərin minalarla böyük dərəcədə çirklənməsi və dəqiq mina sahəsi xəritələrinin olmaması şəhərsalma, reabilitasiya və yenidənqurma işlərinin səmərəli aparılmasına, yüz minlərlə məcburi köçkünün öz doğma yurdlarına qayıtmasına əsas maneə olaraq qalır.

Bu çağırışlara baxmayaraq, Azərbaycan müasir şəhərsalma mexanizmlərini tətbiq etməklə və "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji və sıfır emissiya zonası" əsasında şəhərlərin yenidən qurulmasına başlayıb və artıq nəzərəçarpacaq nəticələr əldə edib. Buraya ən qabaqcıl texnologiyalar vasitəsilə əsas xidmətlərin göstərilməsi, yeni avtomobil yollarının, tunellərin, dəmir yollarının və üç yeni beynəlxalq hava limanının tikintisi daxildir.

Qeyd edilib ki, Azərbaycanın davam edən yenidənqurma və bərpa səyləri BMT-nin Məskunlaşma Proqramı ilə tərəfdaşlığına verdiyi əhəmiyyəti nümayiş etdirir. Qurumun icraçı direktoru xanım Maimuna Mohd Şərifin bu yaxınlarda Azərbaycana səfəri əməkdaşlıqda yeni səhifə açıb.

"Biz qurumun Azərbaycanda Yeni Şəhər Gündəliyinin həyata keçirilməsində oynadığı mühüm rolu yüksək qiymətləndiririk. İllik Milli Şəhər Forumunun bu il Ağdam şəhərində təşkili ilə bağlı müzakirələr son mərhələdədir. Biz bunu bu ilin oktyabrında təşkil etmək niyyətindəyik və fürsətdən istifadə edərək hamınızı münaqişədən sonrakı yenidənqurma prosesləri ilə bağlı geniş spektrli məsələlərin müzakirəsi üçün əla fürsət təqdim edəcəyimiz bu forumda iştiraka dəvət etmək istərdim", - deyə Anar Quliyev bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan da UN HABITAT-ın səylərini qlobal səviyyədə dəstəkləyir. Məhz bu dəstəyin ruhuna uyğun olaraq Azərbaycan beynəlxalq quruma 1,5 milyon ABŞ dolları ayırıb.

Anar Quliyev çıxışının sonunda Azərbaycanın hazırda müasir tarixin ən mürəkkəb və iddialı yenidənqurma- bərpa fəaliyyətini həyata keçirdiyini tədbir iştirakçılarını sessiya çərçivəsində təşkil edilmiş sərgidəki Azərbaycan stendinə baş çəkməyə, orada şəhər planlaması da daxil olmaqla, münaqişədən sonrakı bərpa səylərində əldə edilmiş irəliləyişlərlə tanış olmağa dəvət edib.

# Qarabağ və Şərqi Zəngəzur sürətlə yenidən qurulur

## Soydaşlarımızın tezliklə doğma yurdlarına dönmələri üçün bütün zəruri işlər görülür





Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyunun 26-da işğaldan azad edilmiş Kəlbəcər və Laçın rayonlarında səfərdə olub, bir çox sosial-iqtisadi, hərbi obyektlərin təməlinin qoyulmasında və açılışında iştirak edib. Dövlət başçısı eləcə də tikilməkdə olan bir neçə obyektdə işlərin gedişi ilə maraqlanıb. Prezidentin vurğuladığı kimi, qələbəmizdən ötən ilyarımda işğaldan azad olunan ərazilərdə nəhəng layihələr icra edilib və bu proses davamlı xarakter daşıyır.

Azərbaycan 2020-ci ildən bəri dünyanı iki dəfə heyrətə gətirib. Birincisi, 44 gündə 30 ilə yaxın bir vaxtda düşmən tərəfindən çətin coğrafi məkanda möhkəmləndirilmiş istehkamları yarıb tarixi qələbə qazanıb. Bu müharibədə ölkəmiz XXI əsr hərb tarixində analoqu olmayan bir döyüş taktikasını yerinə yetirərək düşməni məğlub edib.

İkincisi, erməni vandallarının dağıtdığı infrastrukturu bərpa edərkən dünyanı bir daha heyrət içində qoyub. Xüsusilə Füzuli Beynəlxalq Hava Limanının tikintisinin 8 ayda başa çatdırılması dostlarımız (həm də düşmənlərimiz) tərəfindən bir möcüzə kimi qəbul olunub.

Prezident İlham Əliyevin müharibə başa çatan kimi "Qarabağı cənnətə çevirəcəyik!" bəyanatını gəlişi gözəl sözlər kimi qəbul edənlər də olmuşdu. Ancaq burada ilyarım ərzində görülən işlər dövlət başçısının nə qədər qətiyyətli olduğunu bir daha göstərmişdir. Özünün dediyi kimi, "İmzamız qədər sözümüz də dəyərlidir!"

Erməni KİV-ini izləyəndə məlum olur ki, düşmən belə bir qətiyyəti gözləmirmiş. Belə düşünürdülər ki, yalnız əraziləri minalardan təmizləməyə bir neçə il lazım olacaq. Yəni, ən yaxşı halda infrastrukturun bərpasına başlamaq üçün bir neçə il itirəcəyik. Həm də belə düşünənlər təkcə ermənilər deyildi. Bu sahə üzrə beynəlxalq səviyyəli mütəxəssislərin fikirləri də ermənilərinkindən fərqlənmirdi. Sadəcə onlar Prezident İlham Əliyevin qətiyyətini və Azərbaycan xalqının işgüzarlığını düzgün hesablaya bilməmişdilər.

Ötən dövr görülən işlərin miqdarı o qədər böyükdür ki, hər kəsi heyrətə salır. Şuşada yaşayış tədricən bərpa olunur. Burada yerli və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir. Zəngilanın "ağıllı kənd"i Ağalı öz sakinlərini qəbul edib. Beynəlxalq əhəmiyyətli Zəngəzur dəhlizində hərəkətin bərpası üçün Azərbaycan tərəfdə işlər qrafikə uyğun icra edilir, Zəngilan və Laçın hava limanlarının tikintisi üçün lazım olan hazırlıq işləri görülür, işğaldan azad olunan Şuşa, Laçın və Kəlbəcər kimi yüksək dağlıq ərazidə dəmiryolu xətlərinin çəkilməsi üçün sənədləşmə işləri görülür və s.

Sözsüz ki, bütün bu işləri görmək üçün möhkəm iradə, bacarıqlı kadrlar və maliyyə lazımdır. Azərbaycanda bunlar var, yəni kiməsə ehtiyacımız yoxdur. Əgər bizim kimdənsə bir asılılığımız olsaydı, qarşımıza xeyrimizə olmayan çoxlu şərtlər qoyulardı. Biz bunun müstəqilliyimizin ilk illərində belə halların şahidi olmuşuq.

Müharibə qələbəmizlə başa çatsa da, düşmən bundan nəticə çıxarmayıb. Ermənistanda hələ də revanşist qüvvələr yeni müharibədən, qələbədən, işğaldan azad olunan ərazilərin geri qaytarılmasından dəm vururlar. Diplomatik cəbhədə ölkəmizə qarşı hücumlar ara vermir. Prezident İlham Əliyev Ermənistana bununla bağlı qəti xəbərdarlığını edib. Bildirib ki, belə bir hal baş verərsə, cəzası daha ağır olacaq.

Bunun fonunda Azərbaycan dövlətinin siyasətinin əsas məqsədi işğaldan azad olunmuş əraziləri tezliklə bərpa edib, yurd həsrəti ilə yaşayan soydaşlarımızı bu yerlərə qaytarmaqdır. Əsas məsələ, Prezidentin dediyi kimi, doğma yerlərdən məcburi köçkünə çevrilən insanların yaxşı şəraitdə yaşamalarıdır. Bunun üçün bütün layihələr beynəlxalq standartlara uyğun hazırlanır. Təkcə şəhər və rayon mərkəzlərinin deyil, kəndlərin də bərpa layihələri bu prinsipə əsaslanır. Onu da vurğulayaq ki, evlərin tikintisi ilə yanaşı, bütün infrastrukturun müasir standartlara uyğun hazırlanmasına xüsusi diqqət yetirilir.

İşğaldan azad olunan ərazilərdə layihələrin icrasında 4 əsas istiqamətə üstünlük verilir. Birincisi, infrastruktur bərpa olunur. Digər layihələrin icrası üçün bu, vacibdir. İkincisi, sosial layihələr icra edilir. İnsanların yaşaması üçün evlər, məktəblər, xəstəxanalar və digər obyektlər tikilməlidir. Üçüncü vacib olan şərt iqtisadi layihələrin icrasıdır. Məlumdur ki, işğaldan azad olunan ərazilərin zəngin kənd təsərrüfatı, sənaye və turizm potensialı var.

Hazırda bu ərazilərdə iş görmək üçün 1000-dən çox şirkət müraciət edib. Onların 300-dən çoxu xarici şirkətlərdir. Xüsusilə Rusiya və Fransa şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərmək istəmələri qonşularımızı daha çox qıcıqlandırır. Səbəbi məlumdur. Bu baxımdan xarici ölkələrin iş adamlarının Qarabağ və Şərqi Zəngəzur bölgəsində iqtisadi fəaliyyət göstərməsinin iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi tərəfi də var. Onlar ermənilərdən fərqli olaraq işğaldan azad edilən torpaqları Azərbaycan ərazisi kimi şərtsiz qəbul edirlər.

Məlumdur ki, Kəlbəcər yüksək ərazidə yerləşən dağ rayonudur. Qış bu yerlərdə uzun sürür. Dağ yolları ilə aylarla gedib-gəlmək mümkün olmur. Bu üzdən Murovdağ silsiləsində dünyanın ən uzun avtomobil tuneli çəkilir. Uzunluğu 13,5 kilometr olan tunel ilboyu Kəlbəcər və Laçın rayonlarına gediş-gəlişin təhlükəsizliyini təmin edəcək. Ümumiyyətlə, bölgənin dirçəlişi yol-nəqliyyat infrastrukturunun bərpasından keçir. Səfər zamanı dövlət başçısının Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə maraqlanması da bununla bağlıdır. 2-4 hərəkət zolaqlı avtomobil yolu işğaldan azad edilən rayonların arasında əlaqələrin yaranmasında xüsusi əhəmiyyət daşıyacaq.

Bölgənin bərpasında xüsusi diqqət yetirilən amillərdən biri də enerji obyektlərinin tikintisidir. Dövlət başçısının qərarı ilə gözəl təbiətə mailk bu yerlərdə təmiz, bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Məqsədə nail olmaq üçün işğaldan azad edilən ərazilərdə günəş, külək və su-elektrik stansiyalarının tikilməsinə qərar verilib. Prezidentin səfər zamanı "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak etməsi də bununla bağlıdır. Dövlət başçısı həmçinin Kəlbəcərdə "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə də tanış olub.

Məlumdur ki, iqtisadiyyatın, o cümlədən turizmin inkişafında, xüsusilə bu sahəyə xarici investisiyaların qoyuluşunda hava limanlarının fəaliyyəti böyük əhəmiyyət daşıyır. Füzuli Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi, Zəngilan və Laçın hava limanlarının tikintisi əcnəbi iş adamlarının bölgəyə marağını artıracaq. Dövlət başçısı səfər zamanı Laçın Beynəlxalq Hava Limanında görülən işlərlə tanış oldu. Bildirildi ki, əsası 2021-ci ildə qoyulan hava limanı 2024-cü ildə istifadəyə veriləcək. Həmin hava limanının özəlliyi ondan ibarətdir ki, Laçının 30, Şuşanın 70, Kəlbəcərin 60 kilometrliyində yerləşir. Yəni hər üç şəhərin sakinləri bu hava limanının imkanlarından rahat istifadə edə biləcək.

Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərdə görülən işlər barədə danışarkən demişdir: "Yəni, biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir ilyarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz".

Qalib ölkə kimi bu gün şərtləri diktə edən tərəf Azərbaycandır. Ermənilərin nə deməsindən asılı olmayaraq, biz qarşımıza qoyduğumuz məqsədə doğru qətiyyətlə irəliləyirik. Bir neçə ildən sonra həmin torpaqlardan didərgin düşən insanlar yeni həyata başlayacaqlar. Özü də əvvəlkindən daha yaxşı və daha təhlükəsiz. Çünki onların təhlükəsizliyini əvvəllər olduğu kimi, sovet əsgərləri yox, milli ordumuzun əsgərləri qoruyacaq.

Dövlət başçısı iyunun 26-da Silahlı Qüvvələr Günündə Kəlbəcərdə yeni yaradılmış komando briqadasına bayraq təqdimetmə mərazimində demişdir: "Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün - Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə - yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə - Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Türkiyənin Milli Müdafiə Nazirliyi meşə yanğınlarının söndürülməsində iştirak etmiş FHN-in əməkdaşlarına təşəkkür edib

Məlumat verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə qardaş Türkiyədə baş vermiş meşə yanğınları ilə mübarizə tədbirlərinə cəlb olunub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyunun 28-də Türkiyənin Muğla bölgəsində baş vermiş meşə yanğınlarının söndürülməsi əməliyyatlarında iştirak etmiş xarici yanğınsöndürmə qüvvələrinin mükafatlandırılması mərasimi keçirilib.

Dalaman Hava Limanında keçirilən mərasimdə iştirak edən Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Hava Hazırlığı komandiri general-leytenant Ziya Cemal Kadıoğlu Milli Müdafiə Nazirliyinin rəhbərliyi adından Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarənin heyət üzvlərinə təşəkkürünü bildirib, onlara qiymətli hədiyyələr təqdim edib.



# Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

İyunun 28-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Özbəkistanın Mərkəzi Asiya Beynəlxalq İnstitutunun birgə təşkilatçılığı ilə "Müasir şəraitdə Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın perspektivləri" adlı vebinar keçirilib. Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin yekunlarına həsr olunmuş tədbirdə Azərbaycanın və Özbəkistanın beyin mərkəzlərinin nümayəndələri iştirak edərək fikirlərini bölüşüblər.

AZƏRTAC xəbər verir ki, açılış nitqi ilə çıxış edən Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktoru Anvar Nasirov Prezident İlham Əliyevin Özbəkistan səfərini tarixi səfər adlandırıb. Onun sözlərinə görə, bu səfər Azərbaycanla Özbəkistan arasında olan tarixi dostluq və qarşılıqlı fayda kəsb edən münasibətləri yeni səviyyəyə çatdırmaq baxımından böyük əhəmiyyətə malikdir. İnstitut rəhbəri əlavə edib ki, Özbəkistan Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş hesab edir. Onun sözlərinə görə, iki ölkə arasında ortaq layihələrin irəli sürülməsi, ticarət, nəqliyyat dəhlizləri, kənd təsərrüfatı, regionlararası əlaqələr, energetika sahəsində əlaqələrin inkişafı üçün böyük potensial var.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Prezident İlham Əliyevin səfəri və imzalanmış sazişlər əlaqələrin inkişafı üçün çoxsaylı perspektivli sahələrin mövcud olduğunu göstərir. Qeyd edilib ki, regiondakı çətin geosiyasi vəziyyəti nəzərə alaraq təhlükəsizliyin, hərbi potensialın möhkəmlənməsi, ölkələrimizin müdafiə qabiliyyətinin gücləndirilməsi sahəsində əməkdaşlıq çox vacibdir. Fərid Şəfiyev həmçinin iqtisadi və humanitar sahədə də böyük perspektivlərin açıldığını diqqətə çatdırıb və xüsusilə nəqliyyat sahəsində imkanları vurğulayıb. Onun sözlərinə görə, Özbəkistanın da Orta Dəhlizə qoşulması həm Özbəkistan, həm də Azərbaycan iqtisadiyyatına öz müsbət təsirlərini göstərmiş olar. Fərid Şəfiyev Özbəkistanın Azərbaycanın ərazi bütövlüyünə qətiyyətli dəstəyinə görə təşəkkür edib və bildirib ki, Özbəkistan işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak etmək üçün artıq əməli addımlara başlayıb.

Müzakirələr zamanı politoloq Fikrət Sadıxov, Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin rəis müavini Mirəziz Mirpulatov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbərinin müşaviri Zöhrab Qədirov, Özbəkistan Respublikasının İnvestisiya və Xarici Ticarət Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsinin rəis müavini Zafar Amonov, Mərkəzi Asiya Beynəlxalq İnstitutunun şöbə müdiri Alişir Sabirov iki ölkə arasında humanitar münasibətlərdən, əməkdaşlığın vacib elementi kimi nəqliyyat sahəsində əlaqələrdən danışıblar.

Bildirilib ki, Zəngəzur dəhlizinin açılması alternativ vasitə kimi yükdaşımalarına müsbət təsir göstərəcək. Müzakirələr zamanı Azərbaycan və Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlıq sahəsində əməkdaşlıq, qarşılıqlı investisiyaların həcmi ilə bağlı məsələlərə toxunulub. Həmçinin Özbəkistanla Azərbaycan arasında mənəvi, tarixi bağlılıq məsələləri vurğulanıb, bu əlaqələrin inkişafında ayrı-ayrı elm və mədəniyyət xadimlərinin xüsusi rolu qabardılıb.

# *Xarici İşlər Nazirliyi:* "Azərbaycan müharibə istəsəydi, baza prinsiplərini təqdim etməzdi"

Ermənistan baş naziri Nikol Paşinyanın 27 iyun 2022-ci il tarixdə onlayn mətbuat konfransında Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilə bağlı söylədiyi bir sıra fikirlər bu ölkənin bölgədə dayanıqlı sülh yaratmaq istəyini şübhə altına alır.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat veriblər. Bildirilib ki, 30 ilə yaxın Azərbaycan ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayaraq bu əraziləri darmadağın edən bir ölkənin rəhbərinin, Azərbaycanı bu illər ərzində blokada siyasətini yürütməkdə ittiham etməsi heç bir hüquqi və əxlaqi çərçivəyə sığmır.

"Baş nazir Paşinyana xatırladırıq:

Azərbaycan, Ermənistanın işğalçı siyasətinə rəğmən və ərazilərində onilliklər ərzində Ermənistan tərəfindən tətbiq edilmiş "hər şeyi məhv etmək" yanaşmasına baxmayaraq, ərazilərini azad etdikdən sonra iki dövlət arasında münasibətlərin normallaşması tərəfdarı və təşəbbüskarı olub. Məhz Azərbaycanın dövlət başçısı postmünaqişə mərhələsində beynəlxalq hüququn prinsiplərinə ciddi riayət edilməsi əsasında sülh sazişinin imzalanması təklifi ilə çıxış edib. Hətta Azərbaycan tərəfi sazişin əsaslanmalı olduğu baza prinsiplərini də qarşı tərəfə təqdim edib. Paşinyanın iddia etdiyi kimi, Azərbaycan müharibə istəsəydi, yəqin ki, bu addımlara ehtiyac qalmazdı. Əgər Azərbaycan müharibə istəsəydi, Ermənistanın 30 il ərzində yerləyeksan etdiyi ərazilərin yenidən qurulması və bərpası üçün böyük səylər sərf edib, nəhəng işlər görməzdi.

Azərbaycan tərəfi iki ölkə arasında sərhədlərin delimitasiyası, bölgədə bütün kommunikasiyaların açılması və tərəflər arasında gələcək sülh sazişinin imzalanması istiqamətlərində yalnız sözdə açıqlamalar vermir, öz əməlləri və konkret addımları ilə söylədiklərini həyata keçirir. Uzun illər ərzində məhz Azərbaycan tərəfi bölgədə normal münasibətlərin qurulmasının və bütün kommunikasiyaların açılmasının Ermənistana faydalı olacağını söyləyib. Ermənistan tərəfinin bunu nəhayət anlaması və baş nazirin "kommunikasiyaların açılması Ermənistana sərf edir" söyləməsi, Ermənistan rəhbərliyinin yeni yanaşması kimi diqqəti cəlb edir. Görünür, həqiqətlərin Ermənistan tərəfindən qəbul edilməsi bir qədər vaxt tələb edir. Ümid edirik ki, artıq reallığa çevrilən Zəngəzur dəhlizinin fəaliyyətinin səmərəliliyinin Ermənistan tərəfindən dərk edilməsi üçün böyük zamana ehtiyac qalmayacaq.

Üçtərəfli bəyanatlara gəldikdə, bu sənədlə tərəflərin üzərinə götürdüyü öhdəliklər və onların icrası göz qabağındadır. Sənədin iddialarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərinə diversant qüvvələr göndərən, Azərbaycan ərazilərindən qanunsuz silahlı birləşmələrini çıxarmayan, kommunikasiyaların açılmasını uzun müddət ərzində ləngidən Ermənistan bu bəyanatların icrasını kobud şəkildə pozur.

Ermənistan baş naziri, konkret hansı hala istinad etdiyinə aydınlıq gətirmədən "Azərbaycan tərəfinin ən azı bir halda görüşün keçirilməsini boykot etdiyini" söyləyir. Əgər postmünaqişə mərhələsində indiyədək beynəlxalq vasitəçilərin iştirakı ilə də təklif edilən və Ermənistan tərəfindən müxtəlif bəhanələrlə pozulan, habelə keçirilməsinə 1-2 saat qalmış təxribatlarla təxirə salınan görüşləri sadalamağa başlasaq, siyahı çox uzun olar.

Ermənistan həqiqətən sülh istəyirsə, səmərəlilik əmsalı hər zaman aşağı olan və hazırda üzvləri tərəfindən açıq şəkildə fəaliyyətinin qeyri-mümkünlüyü etiraf edilən bir formatı dirçəltməyə zaman sərf etməkdənsə öz siyasi iradəsini ortaya qoyub sülh istiqamətində konkret addımlar atmalıdır", - deyə məlumatda qeyd olunub.

# Zəngilan Beynəlxalq Hava Limanının terminalında görülən işlər avqustda başa çatacaq

Bu yaxınlarda Zəngilan Beynəlxalq Hava Limanının hava hərəkətinin idarə edilməsi qülləsinin istifadəyə verilməsi üzrə tamamlanma işləri icra olunacaq. Terminalda görüləcək işlərin avqust ayında başa çatması nəzərdə tutulur.

Bunu AZƏRTAC-a açıqlamasında "AzVirt" MMC-nin Baş direktorunun müşaviri Ceyhun Səfərov söyləyib.

O qeyd edib ki, Zəngilan Beynəlxalq Hava Limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Perron sahəsi isə 60 min kvadratmetr təşkil edəcək.



Qeyd edək ki, Prezident İlham Əliyev ötən il aprelin 26-da Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoyub.

Zəngilan Beynəlxalq Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın coğrafi mövqeyi, yaradılmaqda olan nəqliyyat infrastrukturu rayonu beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirəcək. Buradan dəmir və avtomobil yolları keçəcək, Naxçıvana yol açılacaq.

# BMqT-nin Azərbaycan nümayəndəliyi həssas qruplardan olan qadınlar üçün kiçik biznes təlimini uğurla başa vurub

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan nümayəndəliyi ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə həyata keçirdiyi "İnsan alverinə qarşı mübarizə üzrə fəaliyyət" layihəsi çərçivəsində iyunun 27-28-də Bakı şəhərində həssas qruplardan olan qadınlar üçün kiçik biznes təlimi təşkil edib.

Təşkilatın Azərbaycan nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, təlimdə ilkin seçim mərhələsini keçmiş 5 xanım iştirak edir. Təlim zamanı iştirakçılar kiçik biznes fəaliyyəti və biznesin idarə olunması haqda bilik və bacarıqlar əldə ediblər. Onlar həmçinin biznes planlarının hazırlanması ilə tanış olub və biznes ideyalarının reallaşdırılmasına əlavə dəstək üçün biznes plan təqdim etmək hüququ əldə ediblər. Təlimi uğurla başa vuracaq və biznes planı qiymətləndirmə komissiyası tərəfindən məqbul qiymətləndiriləcək iştirakçılara kiçik sahibkarlıq fəaliyyətlərini həyata keçirmək üçün dəstək göstəriləcək.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, BMqT-nin Azərbaycan nümayəndəliyi həssas qruplardan olan 10 qadın üçün ilk təlimi Gəncə şəhərində təşkil edib. Cari ildə artıq 15 nəfər kiçik biznes təlimlərinə qatılıb. Ümumilikdə layihə çərçivəsində indiyədək Azərbaycanın müxtəlif bölgələrindən 21 nəfər BMqT-nin təşkil etdiyi kiçik biznes təlimlərindən keçərək öz bizneslərini qurmaq üçün qrant əldə etmək imkanı qazanıb. BMqT tərəfindən həyata keçirilən USAID-in maliyyələşdirdiyi "İnsan alverinə qarşı mübarizə" layihəsi Azərbaycan hökumətinə və QHT-lərə insan alverinin və məcburi əməyin qarşısının alınması və onunla mübarizədə, o cümlədən gender əsaslı zorakılığın aradan qaldırılmasında Azərbaycanın effektivliyini daha da artırmaqda kömək edir. Buraya insan alveri və məcburi əməyin potensial və faktiki qurbanlarına kömək edən sığınacaqları idarə edən vətəndaş cəmiyyəti təşkilatlarına texniki və maliyyə dəstəyi daxildir.

# REGİONLAR



## Ölkədə taxıl biçini davam edir

Bölgələrdə taxıl biçini davam edir. Hazırda Azərbaycanın 61 rayonunda biçin gedir. Aran bölgələrində arpa biçini yekunlaşmaq üzrədir, artıq əksər rayonlarda kütləvi buğda biçininə başlanıb. Bu günədək sahələrdən ümumilikdə 1 milyon 364 min 844 ton məhsul yığılıb.

Biçin prosesinə 1503 taxılbiçən kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 649, fiziki və hüquqi şəxslərin isə 854 kombaynı iştirak edir. "Aqroservis" ASC tərəfindən biçin gedən rayonlara hazırda biçin aparılmayan dağətəyi və dağlıq ərazilərdə yerləşən bölmələrdən əlavə kombaynlar dislokasiya olunub.

Qeyd edək ki, "Aqroservis" ASC-nin kombaynları sahəsi ilkin mərhələdə 50 hektaradək olan kiçik və orta təsərrüfatlarda biçin aparır. Biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir. Növbəlilik sistemi biçinə hazırlıq dövründə yerlərdə icra nümayəndələri və bələdiyyələr tərəfindən müəyyənləşdirilib, sistemə nəzarət isə Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən həyata keçirilir.

Rayonların kombaynlara olan tələbatının əvvəldən müəyyən edilməsi, texnikaların biçindən əvvəl tələbata uyğun olaraq rayonlarda dislokasiya edilməsi, "Aqroservis" ASC tərəfindən sosial biçin siyasətinin həyata keçirilməsi (ilk növbədə 50 hektaradək sahələrdə biçin aparılacaq), ötən illərdə olduğu kimi, bu il də biçin prosesində texnika ilə təminatda problem olmayacağını söyləməyə əsas verir.

## *Naxçıvan MR:* Əsas kapitala yönəldilmiş vəsaitin 96,3 faizi tikinti-quraşdırma işlərinin payına düşür

### Adambaşına düşən ÜDM-in həcmi 2,2 faiz artıb

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 411 milyon 247 min 300 manat vəsait yönəldilib ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur.



AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, əsas kapitala yönəldilmiş vəsaitin 396 milyon 230 min 900 manatı və ya 96,3 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

Komitənin digər məlumatına əsasən, muxtar respublikada 2022-ci ilin yanvar-may aylarında 1 milyard 50 milyon 572 min 500 manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ÜDM həcmi isə 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 2267,1 manat olub.

## Şamaxı şəhərində küçələrin təmirinə başlanılıb

Dövlət başçısının sərəncamına əsasən, Şamaxı şəhərində yol infrastrukturunun müasir səviyyəyə çatdırılaraq vətəndaşların rahat gediş-gəlişinin təmin olunması istiqamətində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan genişmiqyaslı təmir-tikinti işləri davam edir.

Bu çərçivədə cari il Şamaxı şəhərində 18 küçənin təmir işlərinə başlanılıb. Küçələrin ümumi uzunluğu 13 km, təmir işlərinin aparıldığı sahə 73587 kv.m-dir.

Təmir-tikinti işləri zamanı küçə və yollarda köhnə örtük sökülür, zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılır və əks dolğu işləri aparılmaqla yeni yol yatağı, optimal qırmadaş və qum-çınqıl qarışığından yeni yol əsası inşa olunur. Sadalanan işlərin ardınca iri və xırda dənəli olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılır.

"İnşaat Norma və Qaydaları"na uyğun olaraq asfaltlanma işləri bitən küçələrdə hərəkətin normal təşkili üçün yolcizgi və yolgöstərici xətlərinin, həmçinin piyada zolaqlarının çəkilişi icra olunur.

Bütün işlər AAYDA-nin rəhbərliyinin nəzarəti altında tərtib olunmuş qrafikə uyğun şəkildə aparılır. İşlərin vaxtında yekunlaşdırılması üçün ərazilərə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.







## 5 ayda kənd təsərrüfatı məhsullarının istehsalı 3,3 faiz artıb

İl yarıdır. Bu isti yay günləri kəndli üçün ikiqat qaynar dövrdür. Aqrar sektorun bir çox sahələrində məhsul yığımı sürətlə davam edir. Bir sıra sahələrdə isə yığıma hazırlıq görülür, əsas diqqət məhsulun yetişdirilməsinə, keyfiyyətinin yüksək olmasına yönəldilir.

Əslində, kəndlinin işi il boyu dayanmır. Dövlət Statistika Komitəsindən aldığımız məlumatlar da cari ilin yanvar-may ayları ərzində ölkənin kənd təsərrüfatında görülmüş işlərin fakt və rəqəmlərdə ifadəsidir. Belə ki, ilin 5 ayında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 2 milyard 639,8 milyon manat təşkil edib. Bunun 2 milyard 28,4 milyon manatı heyvandarlıq, 611,4 milyon manatı bitkiçilik məhsullarının payına düşüb. 2021-ci ilin eyni dövrünə nisbətən kənd təsərrüfatı məhsullarının istehsalı 3,3, o cümlədən heyvandarlıq üzrə 2,8, bitkiçilik üzrə 5,1 faiz artıb.

Məlumatda iyunun 1-nə ölkədə yaz-tarla işlərinin davam etdiyi bildirilir. İlin əvvəlindən həmin vaxtadək 382,6 min hektar sahədə yazlıq bitkilərin səpini aparılıb. Sözügedən dövrdə 63,4 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər əkilib ki, bunun da 29,3 min hektarı qarğıdalıdır. Eyni zamanda 54,7 min hektar sahədə kartof, 64 min hektarda tərəvəz, 20 min hektarda bostan bitkiləri, 104,3 min hektarda pambıq, 11,4 min hektarda dən üçün günəbaxan, 5 min hektarda şəkər çuğunduru, 2,2 min hektarda tütün, 55,3 min hektarda çoxillik otlar, 1 min hektar sahədə birillik otlar və 1,3 min hektarda digər yazlıq bitkilər əkilib.

Yaz-tarla işləri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının yığımına da başlanıb. İyun ayının 1-nə kimi tarlalardan 54,7 min ton taxıl, 195,5 min ton kartof, 326,2 min ton tərəvəz, 24,1 min ton meyvə və giləmeyvə, 372,6 ton yaşıl çay yarpağı yığılıb. Toplanan kartof, tərəvəz və meyvələr əvvəlki ilin eyni dövrü ilə müqayisədə çox, taxıl və yaşıl çay isə az olub.

Əsas heyvandarlıq məhsullarının istehsalında artım müşahidə edilib. Belə ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən quş əti də daxil olmaqla diri çəkidə ət istehsalı 3 faiz artıb. 5 ayda bu sahədə istehsal 220,1 min ton təşkil edib. 890,9 min ton süd, 824,8 milyon ədəd yumurta istehsal olunub. Bu məhsullar müvafiq olaraq 1,9 və 3 faiz artıb. Yalnız un istehsalı azalıb.

Ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə dövlət dəstəyi baramaçılıqda da özünü müsbət nəticələrlə göstərir. İyunun əvvəlinə 32,7 ton barama istehsal edilib ki, bu da 2021-ci ilin eyni vaxtının göstəricisindən 2,9 dəfə çoxdur.

Qarşıdakı aylar da kəndlidən gərgin zəhmət və böyük məsuliyyət tələb edir. Kəndli və fermerlər aqrar sektorun bütün sahələrində yetişdirdikləri bol məhsulu itkisiz toplamalı, bazara vaxtında çatdırmalı və qışa tədarük etməlidirlər.

***"Azərbaycan"***

## Şəmkirdə meyvə bağlarının sahəsi ildən-ilə genişlənir

### Təsərrüfat sahibləri soyuducu anbarların sayının artırılmasını istəyirlər

Şəmkir ölkənin böyük kənd təsərrüfatı rayonlarındandır. Burada kənd təsərrüfatının digər sahələri kimi, meyvəçiliyin də inkişafı diqqət mərkəzində saxlanılır.

Meyvəçilik Şəmkirdə kənd təsərrüfatının ixtisaslaşmış sahələrindəndir. Hazırda rayondakı 4480,4 hektar meyvə və giləmeyvə bağlarının 3212,6 hektarı barverəndir. Cari ildə həmin sahələrdən 78154,4 ton məhsul götürülmüşdür. Rayonda həm bağların ildən-ilə genişləndirilməsi, həm də meyvə növlərinin artırılması üçün sahibkarlara hər cür dəstək verilir. Bu sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, iqtisadi dəyəri yüksək layihələrin həyata keçirilməsinin təşviqi yerli xammal ehtiyatlarından istifadənin genişləndirilməsinə yol açır.

Şəmkirdə meyvəçiliklə məşğul olan təsərrüfatların problemlərinin həlli istiqamətində operativ tədbirlər həyata keçirilir. Rayon rəhbərliyi mütəmadi olaraq yerli sahibkarlarla görüşlər keçirir, təsərrüfatlarda yaradılan şəraitlə tanış olur, onların arzu və istəklərini dinləyir. Keçirilən görüşlərdə aqrar sahədə aparılan islahatlar, kənd təsərrüfatına dövlət dəstəyi, intensiv bağçılığın inkişafı üçün görülən tədbirlər və aqrar sahənin digər aktual məsələləri ətrafında fikir mübadiləsi də aparılır. Son vaxtlar keçirilən görüşlərdə ən çox qaldırılan məsələ məhsulun saxlanması üçün soyuducu anbarların az olması ilə bağlıdır. Təsərrüfat sahibləri bu vacib məsələnin həlli ilə bağlı arzu və təkliflərini də bildirirlər.

## Ağstafada aqrar innovasiya festivalı keçirilib

Əvvəlcə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin təşəbbüsü ilə "İxraca hazırlıq diaqnostikası, brendləşmə və məhsul strategiyasının hazırlanması" təlimi və "Peyk sistemi əsasında nəqliyyatın monitorinqi" mövzularında məlumat sessiyaları keçirilmişdir.

Ölkəmizdə fəaliyyət göstərən iri şirkətlərin mütəxəssisləri öz uğurlu təcrübələrini, eləcə də təsərrüfatlarında tətbiq etdikləri innovativ texnologiyalarla bağlı məlumatları panel müzakirəsində bölüşmüşlər.

Aqrar innovasiyaların təbliği və təşviqi, fermerlər və sahibkarlar arasında işgüzar əlaqələrin genişləndirilməsi istiqamətində keçirilən festivalda yerli şirkətlər innovativ suvarma texnikalarını, müxtəlif təyinatlı çoxfunksiyalı dronları, zərərvericilərə qarşı yeni mübarizə vasitələrini, kənd təsərrüfatı üçün alternativ enerji mənbələrini, həmçinin innovativ məhsul və texnologiyalarını nümayiş etdirmişlər.

Festivalda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Əkbər Abbasov çıxış edərək diqqətə çatdırmışdır ki, bu festival sayca 9-cudur. Festivalların keçirilməsində əsas məqsəd ölkədə kənd təsərrüfatı sahəsində innovasiyaların təşviqini və tətbiqini artırmaqdır.

Məlumat üçün bildirək ki, festivala Ağstafa ilə yanaşı, ətraf rayonlardan 630 nəfər fermer dəvət olunmuşdu.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

◆ Turizm

## Quba-Qusar bölgəsinin bir günü də qonaq-qarasız olmur

Bu gün Azərbaycana gələn turistlər böyük həvəslə Qubanı görməyə can atırlar və bu, səbəbsiz deyil. Quba hazırda Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən sayılır. Burada turizm infrastrukturu sarıdan əhəmiyyətli işlər görülmüş, o cümlədən müasir istirahət mərkəzləri, yeni hotellər tikilib istifadəyə verilmişdir.




Rayonda həyata keçirilən abadlıq, tikinti-quruculuq və yenidənqurma işləri də turist axınına təkan verən amillərdəndir. Amma Quba təkcə abadlığı və təbii gözəllikləri ilə deyil, həm də qədim tarix-mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə məşhurdur.

İnsanı valeh edən meşələrlə örtülü dağların qoynunda yerləşən, şəlaləli çayları, soyuq bulaqları olan rayon səyahət həvəskarlarının, təbiət vurğunlarının, turistlərin ən çox xoşladıqları məkanlardandır.

Şahdağın və Qudyalçayın ətəklərində qərar tutan, paytaxtdan saatyarımlıq məsafədə yerləşən Quba nəinki Azərbaycanın, eləcə də bütün Qafqazın gözəl guşələrindən biridir. İsti aylarda sərinliyi ilə cana rahatlıq gətirən meşələri, qışda pambıq kimi ağappaq qara bürünmüş dağ və dərələri buraya yolu düşənləri ovsunlayır, onları təkrar-təkrar həmin füsunkar diyara qayıtmağa məcbur edir.

Turizmin potensial brendi olan Qubaya dövlət tərəfindən böyük diqqət göstərilir. Olimpiya idman kompleksi, SPA mərkəzləri, Xınalıq kəndi, qədim xalçaçılıq sənətinin inciləri rayonun turizm simasıdır. Burada 140-dan çox tarix-memarlıq, o cümlədən 70 təbiət abidəsi var. Təbii fəlakətlər zamanı yaranmış bu abidələrə yerlilər təbiət möcüzəsi deyirlər. Bu sırada "Gəlin qayası", "Qızıl qaya", "Gülcahan daşı", "Xan bulağı", "Daş gəlinlər", "Ağacda ev", "Xaltan suyu" və s. təbiət abidələrini göstərmək olar. Rayon ərazisindəki 60-dan artıq arxeoloji abidənin böyük hissəsi IV-XVII əsrlərə aiddir.

Əvvəlki illərdə onların bir çoxunun yolu ürəkaçan deyildir. Ötən mövsümdən bəri yollar təmir edilmiş, bəzi yeni turist infrastruktur sahələri yaradılmışdır. Eyni zamanda Qubanın yaxınlığında yerləşən Qusarı da unutmaq olmaz. Turistlərin ən çox üz tutduqları iki rayonun yanaşı olması bölgəyə marağı təkcə artırmır, həm də qonağın ölkəmiz haqqında təəssüratlarının genişliyini təmin edir. Çünki turist həm də informasiya daşıyıcısıdır. İstirahət zamanı qarşılaşdığı, yaxud heç yerdə görmədiyi nə varsa, yaddaşında saxlayan turist digərlərinin də həmin yerlərə səfərinin təşkilatçısına çevrilir.

Qubadakı istirahət mərkəzləri ilin bütün fəsillərində fəaliyyət göstərir. Buna görə də rayonda turistlərlə bağlı işlər ilboyu aparılır. Məsələn, turizm sahəsinin reklamı ilə bir neçə təşkilat və sayt məşğuldur. Onların hazırladıqları bukletlər, kitabçalar və tur proqramlarından məlum olur ki, 6 ekskursiya turu indi turistlərin ən çox seçdikləri hərəkət xəritəsidir. Bunlar Xınalıq, Afurca, Ləzə, Xanəgah, Alıc Tüləkəran ekskursiya turlarıdır.

Qubanın bir çox istirahət mərkəzi bu il turistlərə sürprizlər hazırlayıb. Birincisi, xidmət personalı milli libaslar geyinir. İkincisi, süfrə mədəniyyətinə diqqət artırılıb. Milli adət-ənənəmizə, mətbəxdə, süfrədə səliqə-sahmana, nəzakətli davranışa da xüsusi fikir verilir. Bundan əlavə, istirahət mərkəzlərinin xarici turistlərə öz ölkəsinin milli xörəklərindən birini hədiyyə edirlər.

Bu gün Qubanın elə bir kəndini, elə bir yaşayış ərazisini tapmazsan ki, orada turistlərlə rastlaşmayasan. I Nügədi, II Nügədi, Pirvahid və digər kəndlərdə hər gün yüzlərlə turist gecələyir. Dəstə-dəstə, kürəklərində səfər çantaları olan bu adamlar kəndlərdə istirahət etməkdən zövq alırlar. Bir çox turist isə Xınalığa yol alır və kəndin mədəniyyəti ilə tanış olur. Həmin istiqamətdəki Qrız kəndinə də üz tutanların sayı çoxdur. Turistlərin bir çoxu özləri ilə gətirdikləri çadırları kəndlərin ətrafında quraraq istirahətlərini təbiətin qoynunda keçirir. Məsələn, yayın əvvəlindən bəri Təngaltı, Xuçbala, Qrız, Gültəpə istiqamətində bir neçə təbii turist düşərgəsi salınıb.

Dünyaya səs salan Quba xalçaları da turistləri maraqlandırır. Burada toxunan "Çiçi", "Ağgül" və "Pirəbədil" xalçalarına maraq daha çoxdur. Yeri gəlmişkən bildirək ki, 1712-ci ildə toxunmuş "Qollu Çiçi" xalçası hazırda Nyu Yorkdakı "Metropoliten" muzeyində saxlanılır. Yəqin elə həm də buna görədir ki, Quba xalçalarını turistlər həvəslə alırlar. Bəzi turistlər isə rayonda olduqları günlərdə xalça sexlərində çalışan qızlarla bir yerdə toxumanın sirlərini öyrənirlər.

Lakin Qubada bu işin təşkilində müəyyən çatışmazlıqlar da mövcuddur. İlk növbədə, Qubada yeni turist marşrutları yaradılmalıdır. Digər problem yollarla bağlıdır. Artıq neçə vaxt idi ki, xüsusən Qubadan paytaxta gələn yolun təxminən 60 kilometrlik hissəsi bərbad vəziyyətdə idi. Çox deyiləndən, yazılandan sonra həmin hissənin təmirinə başlanılıb. Amma çətin ki, təmir bu mövsüm yekunlaşsın. Ona görə də indi Qubaya gedib-gəlmək xeyli vaxt tələb edir. Buna baxmayaraq, Quba-Qusar bölgəsinin təkrarsız təbiəti, turizm infrastrukturu qonaqları bu yerlərə cəlb etməkdə davam edir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Gəncədə Qafqaz İslam Ordusunun ilk şəhidlərinin xatirəsinə abidə ucaldılıb






Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçının, qardaş ölkənin Gəncədəki Baş konsulu Zeki Öztürkün, Azərbaycan Türk İş Adamları Birliyinin sədri Camal Yanğının, AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevin, Milli Məclisin deputatlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, eləcə də din xadimləri və şəhər sakinlərinin iştirak etdikləri açılış mərasimi şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilmişdir.



Niyazi Bayramov çıxış edərək demişdir ki, Silahlı Qüvvələrimiz 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində bizə şanlı Qələbə yaşatdı, 30 il işğalda qalan torpaqlarımızı azad etdi: "Bu gün Qafqaz İslam Ordusunun 1918-ci ildə Gəncədə qəhrəmancasına şəhid olan 13 mehmetciyinin xatirəsinə həsr olunan abidənin açılışıdır. Gəncə şəhəri üçün gözlərini qırpmadan canlarını fəda edən əsgərlərin əziz xatirəsinə ucaldılan abidə hər iki ölkə arasında olan dostluq və qardaşlıq əlaqələrinin bariz nümunəsidir".

Səfir Cahit Bağçı çıxışında bildirmişdir ki, Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" kəlamlarına əsaslanan Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz qardaşlıq münasibətləri üzərində qurulub: "Bu münasibətlərin əsasında tarixi bağ dayanır. Qafqaz İslam Ordusu komandanı Nuru paşanın 1918-ci il mayın 25-də Gəncəyə gəlişi gəncəlilər tərəfindən böyük sevinclə qarşılanıb. Çünki Nuru paşanın ilk amalı Gəncədə mövcud olan təhlükəni aradan qaldırmaq, buradakı düşmənləri tərksilah etmək və azərbaycanlı əhalinin təhlükəsizliyini təmin etməkdən ibarət idi. 1918-ci il iyunun 11-də Qafqaz İslam Ordusunun 13 mehmetciyi Gəncənin Şah Abbas məscidinin ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub". Cahit Bağçı sözügedən ərazidə ucaldılan möhtəşəm abidənin hər iki dövlət üçün çox böyük tarixi hadisə olduğunu vurğulamışdır.

Tədbirdə digər çıxış edənlər də Azərbaycan və Türkiyə arasındakı tarixi köklərə söykənən dostluq və qardaşlıq münasibətlərindən bəhs etmişlər. Bildirmişlər ki, hər iki dövlətin əlaqələri gündən-günə güclənir, möhkəmlənir və daha da dərinləşir.

Şəhidlərin ruhuna dualar oxunduqdan sonra abidənin üzərindən ağ örpək götürülmüş və önünə tər güllər düzülmüşdür. Ardınca Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin "Xəmsə" nağaraçalan qrupunun və Gəncə Dövlət Filarmoniyasının solistlərinin ifasında "Mehtər marşı" və "Nuru paşa marşı" təqdim olunmuşdur.

Mərasimdə Zeki Öztürk Qafqaz İslam Ordusunun ilk şəhidlərindən - 13 qəhrəman mehmetciyin xatirəsinə ucaldılan abidənin inşasında əməyi keçənlərə təşəkkürnamələr vermişdir.

Qeyd edək ki, abidə Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Türkiyənin Azərbaycandakı səfirliyinin, Türkiyənin Gəncədəki Baş Konsulluğunun və Azərbaycan Türk İş Adamları Birliyinin təşkilatçılığı ilə inşa edilib. 7 metr hündürlüyündə olan abidənin memarı Mustafa Yama, layihə rəhbəri Turqay Əliyevdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan aviatorlarına mükafatlar təqdim edilib

"Azərbaycan Hava Yolları" Mətbuat xidmətinin verdiyi məlumata görə, iyunun 28-də bir qrup Azərbaycan aviatorlarına dövlət və müəssisədaxili mükafatların təqdim edilməsi, habelə fəxri adların verilməsi mərasimi keçirilib. Azərbaycanın əllidən çox mülki aviasiya işçisi medal, orden və fəxri adlara layiq görülmüşdür.

1 iyun 2022-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mülki aviasiya sahəsində bir qrup işçinin 3-cü dərəcəli "Əmək" ordeni, "Tərəqqi" medalı ilə təltif edilməsi, həmçinin bu sahədə səmərəli fəaliyyətinə görə "Əməkdar mühəndis" və "Əməkdar pilot" fəxri adlarına layiq görülməsi haqqında sərəncamlar imzalamışdır. "AZAL"ın prezidenti Cahangir Əsgərov mülki aviasiya işçilərini dövlət və müəssisədaxili mükafatlarla təltif edilmələri münasibətilə təbrik edib, onların yüksək peşəkarlığını, fədakarlığını və öz vəzifələrinin icrasına məsuliyyətlə yanaşdıqlarını qeyd edib. Cahangir Əsgərov görüşdə Prezident İlham Əliyevin Azərbaycanın mülki aviasiyasına olan daimi diqqətini vurğulayıb və bu sahəyə göstərdiyi xüsusi qayğısına görə dövlət başçısına minnətdarlığını bildirib. "Azərbaycan aviatorlarının gərgin əməyi və peşəkarlığı ölkənin inkişafına mühüm töhfədir və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu yüksək qiymətləndirilir. Ölkə Prezidentinin bu diqqəti hər bir mülki aviasiya işçisi üçün mühüm motivasiyadır. Dövlət başçısının rəhbərliyi altında bu sahədə mühüm və ciddi dəyişikliklər baş vermiş, ölkənin mülki aviasiyası üzrə böyük perspektiv layihələr həyata keçirilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qeyd etmişdir: "Azərbaycan Hava Yolları"nın ən vacib vəzifəsi uçuşların təhlükəsizliyini təmin etməkdir. Ölkənin hər bir mülki aviasiya işçisi bu nəsihətə əməl edir", - deyə Cahangir Əsgərov bildirib. AZAL prezidenti qeyd edib ki, gələn il Azərbaycanın mülki aviasiyası 85 illiyini qeyd edəcək. Tədbirdə həmçinin "Azərbaycan Hava Yolları" aviaşirkətinin pilotlarının pensiyaya yola salınması da keçirilib. Pilotlara mülki aviasiyada çoxillik əməyinə və sədaqətinə görə təşəkkür edilib, onlara təşəkkürnamələr və qiymətli mükafatlar təqdim olunub.

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Tovuz rayonunun Qaradaş və Səfəri kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Tovuzun ucqar dağ kəndləri olan Qaradaş və Səfərli kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yenidənqurma işləri çərçivəsində 83 abonenti olan Qaradaş kəndində 5 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 13 kilometrə yaxın 10 kV-luq, 11 kilometrdən çox 0,4 kV-luq elektrik xətti yenilənəcək.

Tovuzun Səfərli kəndində də yenilənmə işləri davam etdirilir. 95 abonenti olan kənd ərazisində 4 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 17 kilometrdən çox 10 kV-luq, 14 kilometrdən artıq 0,4 kV-luq elektrik xətti dəyişdiriləcək. Hər iki kənddə elektrik sayğacları yenisi ilə əvəz olunacaq.

Qaradaş və Səfərli kəndləri ilə yanaşı, rayonun Qandallar və Papaqçılar kəndlərində də işlər aparılır. 4 kənddə yenidənqurma işləri yekunlaşdıqdan sonra ümumilikdə 359 abonent keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin ediləcək.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

# Goranboyda Şəhidlər Xatirə-Abidə Kompleksinin açılışı olmuşdur






Goranboyda yenidən qurulan Şəhidlər Xatirə-Abidə Kompleksinin açılışı olmuşdur.

Rayon rəhbərliyinin, şəhid ailələrinin, qazilərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən açılış mərasimində icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, goranboylu Vətən Müharibəsi Qəhrəmanı Saleh Həsənov, Milli Qəhrəman anası Gülzar Ocaqverdiyeva, şəhid ailəsi adından Rahinə Məmmədova, qazi Vüsal Rzayev və şəhid atası Hafiz Əhmədov çıxış edərək Vətən uğrunda şəhid olmuş övladlarının xatirəsinə inşa edilmiş bu möhtəşəm kompleksə görə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın Silahlı Qüvvələri 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ müharibəsində bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürmüş, şanlı Zəfər qazanmış, tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Ölkəmizdə şəhid ailələri və qazilərimizə göstərilən diqqət və qayğıkeşlikdən danışan natiqlər bu sahədə rayonda görülən işləri diqqətə çatdırmışlar. Qeyd etmişlər ki, Goranboyda şəhidlərin məzarları ad günlərində və il mərasimlərində ailə üzvləri ilə birgə ziyarət edilir. Bundan başqa, şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində abidə kompleksləri, bulaqlar və xatirə guşələri yaradılır,



Şəhidlər xiyabanlarında və məzarlıqlarda müntəzəm abadlıq, təmizlik, səliqə-sahman işləri aparılır. Hazırda şəhid ailələrinin müraciətləri əsasında Xan Qərvənd kəndində Şəhidlər Xatirə Kompleksi yenidən qurulur. Goranboy şəhəri Şəhidlər Abidə Kompleksi də məhz şəhid ailələlərinin rayon rəhbərliyinə müraciətləri əsasında, yeni layihə və memarlıq-arxitektura üslubunda inşa edilmişdir. Kompleksin inşası zamanı şəhid ailələrinin fikir və təklifləri nəzərə alınmış, şəhidlərin foto güşələrinin tərtibi onlarla razılaşdırılmışdır.

Tədbir çərçivəsində Azərbaycanın Milli Qəhrəmanı Məhəmməd Həsənovun büstünün açılışı mərasimi də keçirilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# ANAMA minaaxtaranları üçün Zəngilanda yeni mobil sahə düşərgəsi açılmışdır



Ölkə başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi istiqamətində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən müvafiq fəaliyyət həyata keçirilir.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, agentlik işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarının miqyasının genişləndirilməsi məqsədilə maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də zəruri tədbirlər yerinə yetirir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin verdiyi müvafiq tapşırığa əsasən, ANAMA tərəfindən Zəngilan rayonunda yeni mobil sahə düşərgəsi salınıb. Düşərgənin açılış mərasimində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov, ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və digər məsul vəzifəli şəxslər iştirak edib və onlar Qarabağ və Şərqi Zəngəzurda icra edilən minatəmizləmə əməliyyatlarına cəlb olunan ANAMA əməkdaşlarına xidmət edəcək düşərgə ilə tanış olublar.

Əməliyyat, inzibati və xidməti heyət üçün bütün lazımi şəraitlə və müasir avadanlıqlarla təchiz edilən mobil tipli sahə düşərgəsi yataqxana, hamam, sanitar qovşağı, yeməkxana, çamaşırxana, anbar, ofis və tibb məntəqəsi üçün nəzərdə tutulmuş müxtəlif ölçülü konteynerlərdən ibarətdir. Həmçinin burada texnika və nəqliyyat vasitələrinin təmiri üçün xüsusi yerlər də mövcuddur. Bununla yanaşı, şəxsi heyətin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə düşərgə futbol - voleybol meydançası və idman trenajorları ilə təmin edilib.

Qeyd edək ki, konteynerlərdən ibarət mobil tipli sahə düşərgəsi minatəmizləmə əməliyyatlarının aparılması istiqamətindən asılı olaraq gələcəkdə başqa əraziyə daşınma üstünlüyünə malikdir.

# Artilleriya bölmələrində döyüş atışlı təlim keçirilir

2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Quru Qoşunlarının raket və artilleriya bölmələrində döyüş atışlı taktiki təlim keçirilir.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, digər qoşun növləri ilə qarşılıqlı əlaqədə atəşi idarəetmə və komandir heyətinin çevik qərarqəbuletmə qabiliyyətinin, həmçinin şəxsi heyətin səhra vərdişlərinin və praktiki bacarıqlarının artırılması məqsədilə keçirilən təlimdə artilleriya bölmələri cəmləşmə rayonlarına çıxarılaraq təyin olunan yerlərdə atəş mövqelərini tutublar.

Bölmələr tərəfindən şərti düşmən hədəflərinin sərrast atəş zərbələri ilə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilir.

# QHT təmsilçiləri Şuşaya səfər ediblər

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) təmsilçilərinin geniş tərkibdə nümayəndə heyəti iyunun 28-də Şuşa şəhərində səfərdə olub.

AZƏRTAC xəbər verir ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan səfərdə müxtəlif sahələrdə fəaliyyət göstərən 100-dək QHT təmsilçisi və bloger iştirak edib.

Səfər çərçivəsində QHT-lərə Şuşanın azad olunması zamanı Azərbaycan əsgərlərinin göstərdiyi şücaətdən, eyni zamanda şəhərin tarixi, strateji, mədəni və mənəvi əhəmiyyətindən söz açılıb. Həmçinin erməni vandalizminin Şuşada məscidlərə, tarixi abidələrə və digər obyektlərə vurduğu zərər haqqında məlumat verilib.

Qeyri-hökumət təşkilatlarının nümayəndələri mədəniyyət paytaxtımızda böyük həcmdə və sürətlə aparılan abadlıq-quruculuq işləri ilə də tanış olublar.




Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri, Agentliyin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev bildirib ki, Şuşa səfəri Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə QHT-lərin Qarabağ bölgəsinə sayca 10-cu səfəridir. Artıq mütəmadi olaraq mədəniyyət paytaxtımıza QHT-lərin geniş tərkibdə səfəri təşkil edilir. Bu günədək yalnız Şuşaya QHT-lərin 500-dən artıq nümayəndəsinin, ümumilikdə Qarabağa isə 1000-dən çox təmsilçisinin səfəri təşkil edilib. Səfərlərin təşkilində məqsəd 30 ilə yaxın erməni vandallarının törətdiyi dağıntıları, mədəni və tarixi abidələrin məhv edilməsi faktını vətəndaş cəmiyyəti nümayəndələrinin yerində görməsi, eyni zamanda burada aparılan bərpa və quruculuq işlərini onların diqqətinə çatdırmaqdır.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bundan əvvəl QHT nümayəndələrinin Ağdamda, Talış kəndində, Xudafərində olduqlarını bildirib və belə səfərlərin davamlı olacağını diqqətə çatdırıb. İcraçı direktor həmçinin vurğulayıb ki, Şuşa səfəri sabah yekunlaşacaq. Səfərdə 200-ə qədər QHT nümayəndəsi iştirak edir.

◆ "Azərbaycan"ın çıxışından sonra

# "Azərbaycan" qəzeti də bunu istəyirdi

**Elə bizim istəyimiz də bu idi!**

**"NƏ FERMER VAR, NƏ DƏ MÜŞTƏRİ" adlı "Azərbaycan"ın 24 iyun 2022-ci il tarixli nömrəsində dərc edilən tənqidi materialda məqsədimiz paytaxt Bakıda dövlət başçısının tövsiyəsi ilə yaradılan həftəsonu kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının fəaliyyətini canlandırmaq, orada şəhər sakinləri üçün bütün çeşiddə, ucuz qiymətə məhsul satışını təmin etmək idi!**

**Çünki belə olan halda həm fermer razı qalır, həm də alıcı!**

**Tənqidi çıxışımızdan cəmi bircə gün sonra - iyunun 25-də, şənbə günü göstərilən ünvanlardakı yarmarkalarda iş canlandı.**

**Hətta bu barədə "Real TV" (ona Mirşahin televiziyası da deyirlər) geniş reportaj da verdi.**

**"Azərbaycan"ın əməkdaşları yarmarkalardakı dəyişikliklərin şahidi olublar.**

**Fotomüxbirimizin həmin gün çəkdiyi şəkilləri müqayisəli formada diqqətinizə təqdim edirik:**

## Tənqiddən əvvəl və sonra

"Gənclik" yarmarkası





Binəqədi yarmarkası





Xırdalan yarmarkası





Baş verən dəyişiklik geniş miqyası əks etdirməsə də və əsaslı olmasa da, hər halda uzunmüddətli ətalətdən və formalçılıqdan sonra müəyyən irəliləyiş sayıla bilər.

Tənqidi çıxışımıza operativ reaksiya verdiyi üçün Kənd Təsərrüfatı Nazirliyinə təşəkkürümüzü bildiririk...

İnanırıq ki, bundan sonra bütün ünvanlardakı yarmarkalar nümunəvi fəaliyyət göstərəcək.

Çünki fermerin öz məhsulunu təzətər və ucuz qiymətə şəhərə gətirərək paytaxt sakinlərinə satması:

- Regionların İnkişafına dair Dövlət Proqramının;
- Dövlətimizin qeyri-neft sektorunun inkişaf etdirilməsi xəttinin;
- Aqrar sahənin inkişafına, habelə kənddə sahibkarlığın inkişafına dair dövlət siyasətinin reallaşmasına xidmət edir.

Bütövlükdə isə Azərbaycan Prezidentinin xalqın sosial rifahının yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı yeritdiyi siyasətin, gördüyü işlərin və həyata keçirdiyi tədbirlərin işıqlandırılması, geniş ictimaiyyətə çatdırılması "Azərbaycan" qəzetinin ən mühüm fəaliyyət istiqamətlərindəndir.

Sonda bir jurnalist olaraq biz də razılığımızı bildiririk.

Məşhur mahnıda deyildiyi kimi:
Belə ola həmişə!

***"AZƏRBAYCAN"***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### Azərbaycan Dövlət Dəniz Akademiyası və Azərbaycan Dənizçilik Kollecinin tələbələri üçün geyim formalarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 iyul 2022-ci il saat 16:30-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küçəsi, 18, ADDA-nın əsas inzibati binası.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### XDND-nin Əbilov küçəsi, 25 ünvanında yerləşən Liman-baza ərazisinə 6kV elektrik təchizat kabellərinin çəkilməsi işlərinin (mal-material və işçilik birlikdə) satın alınması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binaları üçün həyəcan siqnalizasiya sisteminin təchizatı və quraşdırılması işlərinin satın alınması ilə bağlı 22 aprel 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalı və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 20 iyun 2022-ci il tarixli qərarına əsasən, "YARASA LTD" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

## "Azərişıq" ASC Zaqatala rayonu ərazisində yerləşən 110/35/10 kV-luq "Zaqatala" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması işlərinin satın alınması məqsədilə

## açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Zaqatala rayonu ərazisində yerləşən 110/35/10 kV-luq "Zaqatala" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması işlərinin satın alınması.

**İştirak haqqı - 500 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93 daxili (92-19)) namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(https://etender.gov.az/)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 iyul 2022-ci il saat 12:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 27 iyul 2022-ci il saat 12:00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 iyul 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Elgün Qədirova anası

**GÜLŞƏN QƏDİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri Elgün Qədirova anası

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi iş yoldaşları Sərvər Qədirova anası

**GÜLŞƏN QƏDİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5975**
**Sifariş 1801**
**Qiyməti 40 qəpik**